Non official translation / Qeyri-rəsmi tərcümə

# KONSTİTUSİYA MƏSƏLƏLƏRİ



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Tematik bülleten

Non official translation / Qeyri-rəsmi tərcümə

Dərc olunma tarixi: May 2020

**Son yenilənmə tarixi: Oktyabr 2022**

# KONSTİTUSİYA MƏSƏLƏLƏRİ

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.

***1. KONSTİTUSİYA MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ İSLAHATLAR ...... 3***

**1.1. Deportasiyaya / ölkədən çıxarılmaya qarşı müdafiə ...... 3**

**1.2. Həbsdə saxlanılan şəxsin hüquqlarının müdafiəsi ...... 3**

**1.3. Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin fəaliyyəti ...... 4**

**1.4. Şəxsi həyatın müdafiəsi ...... 11**

**1.5. Din və vicdan azadlığı/ayrı-seçkilik ...... 12**

**1.6. İfadə azadlığı və məlumat əldə etmək imkanı ...... 12**

**1.7. Birləşmək/toplaşmaq azadlığı ...... 13**

**1.8. Mülkiyyətin müdafiəsi ...... 13**

**1.9. Seçki hüquqları ...... 14**

**1.10. Təhsil hüququ ...... 15**

***2. KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN PRESEDENT HÜQUQUNDA DƏYİŞİKLİKLƏR ...... 16***

**2.1. Ölkədən çıxarılmaya/deportasiyaya qarşı müdafiə ...... 16**

**2.2. Həbsdə saxlanılan şəxsin hüquqlarının müdafiəsi ...... 16**

**2.3. Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin səmərəli fəaliyyəti ...... 17**

**2.4. Şəxsi həyatın müdafiəsi ...... 20**

**2.5. İfadə azadlığı ...... 22**

**2.6. Toplaşmaq və birləşmək azadlığı ...... 23**

**2.7. Ayrı-seçkilik ...... 23**

**2.8. Mülkiyyətin müdafiəsi ...... 24**

**2.9. Seçki hüquqları ...... 24**

**2.10. *Ne bis in idem* (eyni əmələ görə iki dəfə cəzalandırılmamaq) ...... 25**

***ƏLAVƏ 1 – İŞLƏRİN SİYAHISI ...... 26***

Avropa Məhkəməsinin qərarlarının Konvensiyanın iştirakçısı olan dövlətlər tərəfindən tam və operativ icrası insan hüquqlarının ümumi dərkinə və onlara riayət olunmasına böyük töhfə verir, Konvensiyanın da məqsədi məhz bunu təmin etməkdir.

Konvensiya sistemi yaradılandan bəri Məhkəmənin qərarlarının icrasını təmin etməyin ən operativ və səmərəli yollarından biri məhkəmə və icra hakimiyyəti orqanlarının onları birbaşa (yəni qanunvericilik dəyişikliyinə ehtiyac olmadan) tətbiq etməsindən ibarət olmuşdur. Belə ki, bir çox konstitusiya məhkəmələri daxili qanunvericiliyi, o cümlədən konstitusiyanı Məhkəmənin qərarlarının icrası kontekstində Konvensiyaya uyğun şəkildə şərh etmişlər.

Bəzi hallarda məhkəmə və icra hakimiyyəti orqanlarının Məhkəmənin qərarlarını birbaşa icra etməsi mümkün olmaya bilər. Bu vəziyyətdə ən geniş yayılmış həll yolu, zəruri hallarda konstitusiya dəyişiklikləri də daxil olmaqla, qanunvericilik tədbirlərinin görülməsidir.

Hazırkı bülletendə Avropa Məhkəməsinin qərarlarının icrası çərçivəsində barəsində məlumat verilmiş qanunvericilik tədbirlərinə və konstitusiyanın şərhinə dair bir sıra nümunələr verilmişdir.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.*
*Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

# 1. KONSTİTUSİYA MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ İSLAHATLAR

## 1.1. Deportasiyaya / ölkədən çıxarılmaya qarşı müdafiə

**Qanunsuz deportasiya və həbs qərarlarına qarşı operativ və səmərəli hüquqi müdafiə vasitəsinin təmin edilməsi:** 5 və 13-cü maddələrin və konstitusion hüquq olan azadlıq və toxunulmazlıq hüququnun pozuntularını, o cümlədən sığınacaq/deportasiya məsələlərində bu hüquqların pozulmasını nəzərə alaraq, 2015-ci ildə konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində xüsusən müxtəlif növ həbs qərarları ilə bağlı problemləri araşdırmaq səlahiyyətinə malik İnzibati Məhkəmə (bu sahədə Ali Məhkəmənin vəzifələrini yerinə yetirmək üçün) yaradılmış; qaçqınlar haqqında qanunvericilikdə dəyişikliklər edilərək daxili məhkəmələrin üzərinə bu sahədə problemli işləri təyin edilmiş qısa müddət ərzində araşdırmaq vəzifəsi qoyulmuşdur.

İnzibati şikayətlərin dayandırıcı qüvvəsinin olmamasını aradan qaldırmaq üçün 2017-ci ildə "İnzibati Məhkəmə haqqında" Qanuna dəyişiklik edilməsi haqqında qanun layihəsi hazırlanmışdır, həmin layihəyə görə, şəxs Konstitusiyaya uyğun olaraq deportasiya qərarından şikayət etdikdə qərarın icrası İnzibati Məhkəmə tərəfindən şikayət üzrə qərar çıxarılana qədər avtomatik olaraq dayandırılır. İşə Konstitusiyaya uyğun olaraq məhkəmə nəzarəti qaydasında baxılarkən şəxs qərarın icrasının Konvensiyanın 2 və ya 3-cü maddələrini pozacağını iddia edərsə, bu hal qanun layihəsi qəbul edilənə qədər praktikada deportasiya haqqında qərarların icrasını dayandıracaq.

***KİP / M.A. (41872/10)***

**Yekun qərar 23/10/2013**

***Fəaliyyət planı***

**Ekstradisiya icraatında hüquqi müdafiənin gücləndirilməsi:** AİHM tərəfindən müəyyən edilmiş 3, 5 və 13-cü maddələrin pozuntularına cavab olaraq və hər kəsin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət orqanlarının qərarlarını, hərəkətlərini və ya hərəkətsizliyini mübahisələndirmək hüququna malik olduğuna dair konstitusiya təminatına uyğun olaraq, həm 2010, həm də 2012-ci illərdə Cinayət Prosessual Məcəlləsinə edilən dəyişikliklərlə ekstradisiyanı və ekstradisiyaya qədərki həbsi tənzimləyən hüquqi baza yaradılmış, o cümlədən məhkəmə nəzarəti, habelə qanunsuz həbsə görə kompensasiya hüququ kimi bir sıra təminatlar orada öz əksini tapmışdır. Şəxs üçüncü ölkəyə ekstradisiya ediləcəyi təqdirdə qəddar rəftara məruz qalma riski olduğunu iddia edərsə, yeni hüquqi müdafiə vasitələri dayandırıcı qüvvəyə malikdir. Eynilə, qaçqın statusu ilə bağlı icraatlarda şikayətin dayandırıcı qüvvəsi 2011-ci ildə qəbul edilmiş qanunla təsbit edilmişdir. Qaçqın statusu üçün və yaxud əlavə və ya müvəqqəti himayə üçün müraciət etmiş şəxslər müraciətlərinə baxıldığı müddətdə ölkədən çıxarıla bilməzlər.

***UKR / Soldatenko (2440/07)***

***Yekun qərar 23/01/2009***

**Fəaliyyət hesabatı**

**Yekun qətnamə CM/ResDH(2018)316**

## 1.2. Həbsdə saxlanılan şəxsin hüquqlarının müdafiəsi

**Həbsdə saxlanmanın maksimum müddətinin məhdudlaşdırılması:** Həbs qətimkan tədbirinin müddətinə dair qanunvericiliyin aydın və proqnozlaşdırıla bilən olmamasının (3-cü maddə və 5-ci maddənin 1-ci bəndi) AİHM tərəfindən tənqid edilməsinə cavab olaraq bu qüsuru aradan qaldırmaq və müvafiq konstitusiya təminatlarını qanunvericiliyə daxil etmək üçün Konstitusiya Məhkəməsi Cinayət Prosessual Məcəlləsinin bəzi müddəalarını konstitusiyaya zidd elan etmiş və nəticədə 2016-cı ildə parlament həbsdə saxlanma müddətinin cinayət prosesinin həm məhkəməyəqədər, həm də məhkəmə baxışı mərhələsində birinci instansiyada qərar çıxarılanadək (işə yenidən baxılması üzrə icraat da daxil olmaqla) 12 aydan çox ola bilməməsini nəzərdə tutan zəruri dəyişiklikləri qəbul etmişdir. İstisna hallarda həbs müddətinin 12 aydan çox uzadılmasına imkan verən əvvəlki müddəa ləğv edilmişdir.

***MOL / Savca (17963/08)***

***Yekun qərar 15/06/2016***

**Fəaliyyət hesabatı**

**Yekun qətnamə CM/ResDH(2017)124**

| | |
|---|---|
| **Həbs qərarına məhkəmə tərəfindən baxılması hüququnun və qanunsuz həbsə görə kompensasiya hüququnun həyata keçirilməsi:** 3-cü maddənin, habelə 5-ci maddənin 3, 4 və 5-ci bəndlərinin pozuntularının aradan qaldırılması üçün 48 saat ərzində hakimin yanına gətirilmək hüququnun, eləcə də qanunsuz həbsə görə kompensasiya hüququnun müdafiəsi 2006-cı ildə konstitusiya ilə təmin edilmişdir. Bundan başqa, həbs qərarına məhkəmə tərəfindən yenidən baxılması hüququ 2011-ci il tarixli Cinayət Prosessual Məcəlləsində də təsbit edilmişdir. Sonradan Konstitusiya Məhkəməsi məhkəməyəqədər həbs məsələləri ilə, o cümlədən həbsin alternativi olan tədbirlərlə bağlı konvensiyaya uyğun presedent hüququnu formalaşdırmışdır. | ***SER / Vrencev (2361/05)***<br>***Yekun qərar 23/12/2008***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2018)52** |
| **Həbsdə saxlanmanın qanuniliyinin hakim tərəfindən yoxlanılmasının təmin edilməsi:** AİHM tərəfindən müəyyən edilmiş həbsdə saxlanmanın qanuniliyinin hakim tərəfindən yoxlanılması hüququnun (5-ci maddənin 4-cü bəndi) təmin edilməməsi hallarının aradan qaldırılması və bu hüququn Konstitusiyada təsbit edilməsi üçün məhkəmə sisteminin təşkilinə, məhkəmə prosedurlarına və ədalət mühakiməsinin həyata keçirilməsinə dair Federal Konstitusiya normalarında dəyişiklikləri nəzərdə tutan islahat aparılmışdır ki, bunda da məqsəd Konfederasiya daxilində cinayət mühakimə icraatı qaydalarını vahid şəkildə birləşdirmək və qanunvericilikdə bütün məhbusların, o cümlədən bir kantondan digərinə köçürülənlərin həbsinə məhkəmə tərəfindən yenidən baxılmasını aydın şəkildə təsbit etməkdir. | ***İSVR / R.M.D. (19800/92)***<br>***Yekun qərar 26/09/1997***<br>**Aralıq qətnamə DH(99)678** |
| **Polis tərəfindən həbsdə saxlanma müddətinin məhdudlaşdırılması:** 3-cü maddənin, habelə 5-ci maddənin 3, 4 və 5-ci bəndlərinin pozuntularının AİHM tərəfindən müəyyən edilməsinə cavab olaraq, 2001-ci ildə Konstitusiyaya dəyişiklik edildi və həbs edilmiş şəxs hakimin yanına gətirilənə qədər polis tərəfindən həbsdə saxlanmasının maksimum müddəti 4 günlə məhdudlaşdırıldı, lakin fövqəladə vəziyyətdə istisnaya yol verilə bilər. Bu müddəalar birbaşa tətbiq olunmağa başladı, daxili məhkəmələrin presedent hüququ da bunu təsdiqləyir. Cinayət Prosessual Məcəlləsinin polis tərəfindən həbsdə saxlanma ilə bağlı müddəaları sonradan yeni konstitusiya müddəasına uyğunlaşdırıldı. Pozuntuların baş verməsi kompensasiya ilə nəticələnəcək. Bundan əlavə, ittiham olunduğu cinayətdən asılı olmayaraq, bütün şəxslərə həbsin qanuniliyinin məhkəmə tərəfindən yoxlanılması üçün müraciət etmək hüququ verilmişdir. | ***TÜR / Sakik və başqaları (№1) (23878/94)***<br>***Yekun qərar 26/11/1997***<br>**Yekun qətnamə ResDH(2002)110)** |
| **Həbsdə saxlanma müddətinin avtomatik uzadılmasının qadağan edilməsi:** İHAK-ın 5-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan tələblərin yerinə yetirilməsinin təmin edilməsi və heç kimin əsaslandırılmış məhkəmə qərarı olmadan və qanunla müəyyən edilmiş prosedurlara riayət edilmədən həbs edilməyəcəyinə və ya həbsdə saxlanıla bilməyəcəyinə dair konstitusiya təminatının səmərəli şəkildə tətbiq edilməsi üçün 2017-ci ildə Konstitusiya Məhkəməsi 2012-ci il tarixli Cinayət Prosessual Məcəlləsinin ibtidai istintaqın başa çatması ilə məhkəmə icraatının başlanması arasında həbs qətimkan tədbirinin məhkəmə qərarı olmadan avtomatik uzadılmasına icazə verən hissələrini Konstitusiyaya zidd elan etdi. Beləliklə, qüsurlu qanunvericilik müddəası artıq tətbiq edilmir və qalan hüquqi qeyri-müəyyənliyi aradan qaldırmağa yönəlmiş qanun layihəsi hazırda Parlamentin müzakirəsindədir. | ***UKR / Ignatov (40583/15)***<br>**Yekun qərar 15/03/2017**<br>**Fəaliyyət planı** |

## 1.3. Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin fəaliyyəti

| | |
|---|---|
| **Məhkəmə islahatları və icraatların sürətləndirilməsi:** 6-cı maddənin 1-ci bəndinin və 13-cü maddənin AİHM tərəfindən müəyyən edilmiş pozuntusunu aradan qaldırmaq üçün 2016-cı ildə bir sıra konstitusiya dəyişiklikləri qəbul edilmiş, xüsusən də məhkəmə sistemində idarəetmə və inzibatçılığın əsas institutu kimi Ali Məhkəmə Şurasının yaradılması qərara alınmış, onun vəzifələri “Məhkəmə sisteminin idarə olunması haqqında” 2016-cı il tarixli Qanunda ətraflı şəkildə müəyyən edilmişdir. Bundan başqa, hakimlərə qarşı intizam icraatında xüsusi diqqətliliyin və qərəzsizliyin təmin edilməsi məqsədilə “Hakimlərin və prokurorların statusu haqqında” 2016-cı il tarixli yeni Qanunla məhkəmə üzvlərinin karyerasına və fəaliyyətinə nəzarət üçün məsul olan Baş ədliyyə müfəttişi vəzifəsi yaradılmışdır. Bundan əlavə, 2017-ci ildə Mülki Prosessual Məcəlləyə edilmiş dəyişikliklərlə operativ və kompensasiyaedici hüquqi müdafiə vasitələri qanunvericiliyə daxil edilmişdir. | ***ALB / Mishgjoni (18381/05)***<br>**Yekun qərar 07/03/2011**<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2018)73** |

| | |
|---|---|
| **AİHM-in qərarından sonra cinayət işi üzrə icraatın yenidən başlanması barədə qərar verilməsi:** 6-cı maddənin 1-ci və 3-cü bəndlərinin AİHM tərəfindən müəyyən edilmiş pozuntularını nəzərə alaraq və cinayət mühakimə icraatının ədalətliliyi ilə bağlı AİHM-in qərarlarının icrasını asanlaşdırmaq məqsədilə Konstitusiya Məhkəməsi 2011-ci ildə Cinayət Prosessual Məcəlləsinin müddəalarını şərh edərkən təsdiq etdi ki, Ali Məhkəmə AİHM-in qərarlarında mübahisələndirilən cinayət işi üzrə icraata yenidən başlamaq səlahiyyətinə malikdir. Sonradan Ali Məhkəmə özünün müvafiq presedent hüququnu vahid şəkildə birləşdirdi və nəhayət, 2017-ci ildə Cinayət Prosessual Məcəlləsinə işlərin icraatının yenidən başlanması üçün müraciət etmək imkanı daxil edildi. | *ALB / Caka işlər qrupu (44023/02+)*<br>Yekun qərar 08/03/2010<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2017)417<br>*ALB / Xheraj (37959/02)*<br>Yekun qərar 01/12/2008<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2016)96 |
| **Konstitusiya Məhkəməsinə çıxış imkanının artırılması:** 6-cı maddənin 1-ci bəndinin AİHM tərəfindən müəyyən edilmiş pozuntusuna cavab olaraq, Konstitusiya Məhkəməsinə çıxış imkanı bu məhkəməyə şikayət vermək üçün müddətlərin hesablanması ilə bağlı geniş maarifləndirmə tədbirləri vasitəsilə təmin edilmişdir.<br><br>Konstitusiya Məhkəməsinin yekun qərarının qəbul edilməsini təmin etmək və səslər bərabər bölündüyü halda şikayət ərizəsinin rədd edilməsi praktikasına son qoymaq məqsədilə 2016-cı ildə Konstitusiya Məhkəməsinin təşkili və fəaliyyəti haqqında qanuna dəyişiklik edilmişdir. | *ALB / Laska və Lika (12315/04)*<br>Yekun qərar 20/07/2010<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/Res(2016)272<br>*ALB / Marini (3738/02+)*<br>*Yekun qərar 07/07/2008*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2016)357 |
| **Konstitusiya Məhkəməsinə çıxış imkanının artırılması:** 6-cı maddənin 1-ci bəndinin AİHM tərəfindən müəyyən edilmiş pozuntusunu aradan qaldırmaq və şəxsin konstitusiya hüquqlarının pozulması halında məhkəmə müdafiəsini gücləndirmək məqsədilə Konstitusiya Məhkəməsinin 1999-cu il tarixli Reqlamentində dəyişiklik edilməsi barədə qanunda nəzərdə tutulmuşdur ki, belə şəxs konstitusiya hüquqlarının müdafiəsi üçün birbaşa Konstitusiya Məhkəməsinə müraciət edə bilər. | *AND / Millan I Tornes (35052/97)*<br>*Yekun qərar 06/10/1999*<br>Yekun qətnamə DH(1999/721) |
| **Şahidləri dindirmək hüququ:** 6-cı maddənin 1-ci və 3-cü bəndlərinin pozuntularını aradan qaldırmaq və ədalətli məhkəmə araşdırması hüququnu daha ətraflı tənzimləmək üçün 2015-ci ildə Konstitusiyaya dəyişiklik edilib və layihə formasında olan yeni Cinayət Prosessual Məcəlləsi həm məhkəməyəqədər mərhələdə, həm də məhkəmə araşdırması mərhələsində dinləmələrin çəkişmə xarakterli olmasını təmin edəcək. | *ERM / Avetisyan (13479/11)*<br>Yekun qərar 10/02/2017<br>Fəaliyyət planı<br>Yekun qətnamə CM/ResDH(2018)405 |

| | |
|---|---|
| **Ədalət mühakiməsinin səmərəliliyinin və Konstitusiya Məhkəməsinə çıxış imkanının artırılması:** Hakimlərin səlahiyyət müddətinə xitam verən prezident fərmanlarına qarşı şikayətlərə daxili məhkəmələrin baxmaqdan imtina etməsi hallarını aradan qaldırmaq və inzibati ədalət mühakiməsinin səmərəliliyini artırmaq məqsədilə 2005-ci ildə Konstitusiyaya edilmiş dəyişikliklərlə üçsəviyyəli məhkəmə sistemi təsbit edildi. Daha sonra 2008-ci ildə ixtisaslaşdırılmış Birinci İnstansiya İnzibati Məhkəməsi, 2010-cu ildə isə ixtisaslaşdırılmış İnzibati Apellyasiya Məhkəməsi yaradıldı. 2014-cü il İnzibati Prosessual Məcəllədə dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərinin qanuniliyini mübahisələndirmək üçün nəzərdə tutulan, asan anlaşılan və tətbiqinin nəticələrini proqnozlaşdırılmaq mümkün olan müddəalar öz əksini tapmışdır. Həmçinin 2005-ci və 2015-ci illərdə Konstitusiyaya edilmiş dəyişikliklər hüquqi aktın konstitusiyaya uyğunluğunu mübahisələndirmək üçün Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnu təsbit edir. | ***ERM / Saghatelyan (7984/06)***<br><br>***Yekun qərar 20/01/2016***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2016)211** |
| **Milli və beynəlxalq orqanlarda məhkəmə qaydasında müdafiə imkanlarının gücləndirilməsi:** Aşkar edilmiş inzibati hərəkətlərin və hərəkətsizliyin məhkəmə tərəfindən yoxlanılmaması hallarını aradan qaldırmaq üçün 2005-ci ildə konstitusiyaya dəyişikliklər qəbul edilmiş, məhkəmə və digər dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələri hüququ və insan hüquqlarının müdafiəsi üçün beynəlxalq qurumlara müraciət hüququ təsbit edilmişdir. | ***ERM /Melikyan* (9737/06)**<br><br>**Yekun qərar 19/05/2013**<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2014)44** |
| **İnzibati icraatda həddindən artıq ləngimələrə qarşı səmərəli hüquqi müdafiə vasitələrinin tətbiqi:** 6-cı maddənin 1-ci bəndinin aşkar edilmiş pozuntusunu aradan qaldırmaq və inzibati orqanların və məhkəmələrin əsassız gecikdirmələr olmadan qərar qəbul etmək üzrə müvafiq konstitusiya öhdəliyinin yerinə yetirilməsini yaxşılaşdırmaq üçün 2014-cü ildə inzibati məhkəmə sistemində islahatlar aparılmış, doqquz regional və iki federal inzibati məhkəmə yaradılmışdır. Bundan əlavə, iki yeni hüquqi müdafiə vasitəsi təsbit edilmişdir: idarəetmə orqanlarının qərar qəbul etməməsi ilə bağlı birinci instansiya inzibati məhkəmələrinə ərizə verilə bilər ki, bu da həmin orqana üç ay müddətində qərar etmək barədə göstəriş verilməsi ilə nəticələnə bilər, habelə qərarın qəbulunun sürətləndirilməsi məqsədilə müddət müəyyən edilməsi üçün Ali İnzibati Məhkəməyə müraciət edilə bilər. Bu islahat həm də Konstitusiya Məhkəməsinin iş yükünü azaltmağa yönəlib. | ***AVS / Rambauske (45369/07)***<br><br>***Yekun qərar 28/04/2010***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2015)222** |
| **Konstitusiya Məhkəməsinə çıxış imkanının artırılması və onun səmərəli fəaliyyət göstərməsi:** AİHM tərəfindən müəyyən edilmiş Konstitusiya Məhkəməsinə müraciətin rədd edilməsi hallarını aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsinin 2014-cü il tarixli Reqlamentində nəzərdə tutulub ki, hakimlər səs çoxluğuna nail ola bilmədikdə, sədr və ya onun əvəzedicisi iki səs hüququna malik olur və beləliklə, səsvermədə üstünlük qazanır. Reqlamentində həmçinin nəzərdə tutulur ki, AİHM Konstitusiya Məhkəməsində icraatın yenidən başlanması üçün müraciətin rədd edildiyini aşkar etdiyi halda icraatın yenidən başlanmasına imkan yaradılır. | ***BVH / Avdic və başqaları (28357/11+)***<br><br>***Yekun qərar 19/02/2014***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2015)170** |
| **Məhkəmə icraatını sürətləndirmək üçün konstitusion hüquqi müdafiə vasitəsi:** Həddindən artıq uzun sürən icraatlara qarşı hüquqi müdafiə vasitələrini təkmilləşdirmək məqsədilə 2002-ci ildə "Konstitusiya Məhkəməsi haqqında" Qanuna belə hallarda konstitusiya şikayətinə icazə verən dəyişiklik edilmişdir: dəyişikliyə əsasən, Konstitusiya Məhkəməsi mahiyyəti üzrə qərarın qəbulu üçün müddət müəyyən edir və konstitusiya hüquqlarının müəyyən edilmiş pozuntusu müqabilində dövlət büdcəsindən ödənilməli olan müvafiq kompensasiyanı təyin edir.<br>2005-ci ildə qəbul edilmiş "Məhkəmələr haqqında" Qanunda Konstitusiya Məhkəməsinin səlahiyyətləri Ali Məhkəmədə baxılan işlərlə məhdudlaşdırılmışdı. Bir qayda olaraq, ümumi yurisdiksiyalı yuxarı məhkəmələr icraata xitam verilməsi və kompensasiyanın ödənilməsi müddətləri barədə qərar verə bilərdilər. "Məhkəmələr haqqında" 2013-cü il tarixli yeni Qanunda biri sürətləndirici, biri isə kompensasiyaedici xarakter daşıyan iki hüquqi müdafiə | ***XOR / Horvat işlər qrupu (51585/99+)***<br><br>***Yekun qərar 26/10/2001***<br><br>**Yekun qətnamə CM/ResDH(2005)60**<br><br>***XOR / Jakupovic (12419/04)***<br><br>***Yekun qərar 31/10/2007*** |

| | |
|---|---|
| vasitəsi təsbit edildi. Konstitusiya Məhkəməsi bu məsələdə sonuncu instansiya olaraq qaldı. Ədliyyə Nazirliyinin Məhkəmə Müfəttişliyi ağlabatan müddətdə məhkəmə araşdırması hüququnun müdafiəsi ilə bağlı məsələlərə məhkəmə rəhbərliyi tərəfindən qanuni, səmərəli və vicdanlı şəkildə yanaşılmasına nəzarət edir. | Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2018)409 |
| **Konstitusiya Məhkəməsində çəkişmə xarakterli dinləmənin təmin edilməsi:** Ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı İHAK-ın tələblərinin effektiv şəkildə həyata keçirilməsi üçün Konstitusiya Məhkəməsi 2012-ci ildə yeni "Daxili qaydalar" qəbul etmişdir, bu qaydalar dinləmənin çəkişmə prinsipi əsasında keçirilməsinə əməl olunmasını təmin edir, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun müddəalarını aydınlaşdırır və konstitusiya şikayəti üzrə icraat barədə məlumatın bütün iştirakçılara mütləq qaydada çatdırılmasını nəzərdə tutur. | ***XOR / Juricic*** **(58222/09)**<br><br>Yekun qərar 26/10/2011<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2017)384 |
| **Konstitusiya Məhkəməsində mülki işlər üzrə icraatın yenidən başlanması:** Mülki işlərdə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu müəyyən edən AİHM qərarlarının icrasını asanlaşdırmaq üçün "Konstitusiya Məhkəməsi haqqında" 2013-cü il tarixli Qanuna mülki işlər üzrə konstitusiya icraatının yenidən başlanması üçün məhkəməyə müraciət etmək hüququnu nəzərdə tutan müddəa daxil edilmişdir. | ***ÇEX / Zakova*** **(2000/09)**<br><br>Yekun qərar 20/01/2014<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2018)202 |
| **Cinayət prosesinin ədalətliliyinin təmin edilməsi:** İHAK-ın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusunu aradan qaldırmaq və müvafiq konstitusiya təminatlarını təkmilləşdirmək üçün 1985-ci ildə məhkəmə hakimiyyətinə aid orqanik qanun qəbul edilmişdir. Bu qanunda konstitusiya hüququnun pozulması ilə əlaqədar kassasiya şikayəti vermək imkanı, habelə ədalətli məhkəmə araşdırması prinsipini, müdafiəçidən yardım almaq hüququnu və ya müdafiə hüquqlarını pozan məhkəmə aktlarının ləğvini tələb etmək imkanı nəzərdə tutulur. Bu qanunda hakimlərin əvəzlənməsi ilə bağlı yeni müddəalar da var. 1988-ci il tarixli digər iki orqanik qanunla Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə dəyişiklik edilərək silahlı qrupların və terrorçu elementlərin hərəkətləri ilə bağlı müddəalar ləğv edildi. Hakimlər həbs müddətini əvvəllər icazə verildiyi kimi 7 gün deyil, yalnız 48 saata qədər uzada bilərlər. Tutulmuş şəxsin tam təcrid edilməsi müdafiə hüquqlarına xələl gətirməməlidir. *Habeas corpus* (həbsin qanuniliyinin hakim tərəfindən yoxlanılması) proseduru 1984-cü ildə orqanik qanunla tənzimlənirdi ki, bunda da məqsəd qanunsuz həbs olunduğunu iddia edən hər bir şəxsin dərhal hakimin yanına aparılmasını tələb etməsinə imkan yaratmaq idi. 1988-ci ildə Cinayət Prosessual Məcəlləsində aparılmış islahat nəticəsində məhkəmə istintaqı funksiyası məhkəmə hökmünün qəbul edilməsi funksiyasından ayrıldı. Bundan başqa, yeni qanun istintaq mərhələsində prokurorluğun rolunu artırdı və maksimum altı il azadlıqdan məhrumetmə cəzası nəzərdə tutan cinayətlərlə bağlı işlərə baxmaq səlahiyyətinə malik ikinci instansiya təsis edildi. | ***İSP / Barbera, Messegue və Jabardo*** **(10588/83)**<br><br>Yekun qərar 06/12/1988<br><br>Yekun qətnamə DH(94)84 |
| **Məhkəmə sisteminin səmərəliliyinin artırılması:** Məhkəmə icraatının ədalətliliyi və müddəti ilə bağlı aşkar edilmiş problemlərin aradan qaldırılması və məhkəmə müdafiəsinin səmərəliliyinin artırılması üçün "Məhkəmə sistemi haqqında" Konstitusiya Qanununa, Mülki Prosessual Məcəlləyə və Cinayət Prosessual Məcəlləsinə 2015-ci ildə dəyişikliklər edilmişdir ki, bunda da məqsəd məhkəmələrdə işlərin təşkilini daha çevik və istifadəçilər üçün daha rahat etməkdir. | ***İSP / Moreno Carmona*** **(26178/04)**<br><br>Yekun qərar 09/09/2009<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2018)35 |

| | |
|---|---|
| **Cinayət işləri üzrə yekun hökmlərə yenidən baxılması imkanının təmin edilməsi:** 1991-ci ildə Konstitusiya Məhkəməsi 6-cı maddənin pozulduğunun AİHM tərəfindən müəyyən edildiyi cinayət işləri üzrə yekun hökmə yenidən baxılması üçün müraciət etmək imkanı yaradan presedent xarakterli qərar çıxardı. Ali Məhkəmə isə 2014-cü il tarixli qərarında müəyyən etdi ki, AİHM-in istənilən qərarı hər hansı cinayət işi üzrə yekun hökmə yenidən baxılması üçün mötəbər əsas kimi qəbul edilməlidir. Bu prinsiplər 2015-ci ildə qəbul edilmiş "Məhkəmə haqqında" Orqanik Qanunda öz əksini tapmışdır.<br><br>**Şifahi dinləmənin zəruriliyi barədə qərarım qəbul edilməsində apellyasiya məhkəmələrinin diskresion səlahiyyətinin məhdudlaşdırılması:** Konstitusiya Məhkəməsi 2002-ci ildə ölkədaxili presedent hüququnda dəyişiklik etmişdir. Buna uyğun olaraq, Ali Məhkəmə ikinci instansiyada açıq məhkəmə iclası keçirilmədiyi təqdirdə birinci instansiya məhkəməsinin bəraət hökmlərinin ləğvi barədə qərarları təsdiq etmir. | ***İSP / Igual Coll (37496/04)***<br><br>**Yekun qərar 10/06/2009**<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)69** |
| **Həbsin gedişində və ya həbsdə saxlanma zamanı qəddar rəftara yol verildiyi barədə iddialara münasibətdə istintaq orqanlarının müstəqilliyinin və qərəzsizliyinin təmin edilməsi:** 2 və 3-cü maddələrin pozuntuları ilə, xüsusən də təhlükəsizlik qüvvələri tərəfindən pozulması ilə bağlı iddiaların araşdırılmasının səmərəliliyinin artırılması və məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatlarına dair müddəaların Konstitusiyaya daxil edilməsi üçün 2017-2018-ci illərdə konstitusiya dəyişiklikləri vasitəsilə aşağıdakı nailiyyətlər əldə edildi: prokurorluq müstəqil konstitusion orqana çevrilib; məhkəmə sistemi siyasi təsirlərdən azad edilib; işgəncə artıq sistem xarakterli problem deyil; aparılan araşdırmalarda zərərçəkənlərin hüquqları genişləndirilib. | ***GÜR / Gharibashvili* (11830/03+)**<br><br>**Yekun qəərar 29/10/2008**<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)287** |
| **Ölkədaxili yekun qərarların icrası:** Dövlət administrasiyasının Ali İnzibati Məhkəmənin qərarlarına əməl etmək öhdəliyi daşımasına dair konstitusiya təminatının təcrübədə yetərli olmadığı ortaya çıxmışdır. Buna görə də, 2001-ci ildə administrasiyanın bütün məhkəmə qərarlarına əməl etmək öhdəliyini gücləndirmək üçün Konstitusiyaya dəyişiklik qəbul edilmişdir. Dövlətə, ölkədaxili hakimiyyət orqanlarına və hüquqi şəxslərə qarşı məhkəmə qərarlarının məcburi qaydada icrası artıq mümkündür. | ***YUN / Hornsby işlər qrupu* (18357/91)**<br><br>**Yekun qərar 19/03/1997**<br><br>**Yekun qətnamə CM/ResDH(2004)81** |
| **Məhkəmə qərarlarının əsaslandırılması:** 6-cı maddənin 1-ci bəndinin aşkar edilmiş pozuntusunu aradan qaldırmaq üçün 2001-ci ildə konstitusiya dəyişikliyi qəbul edildi, dəyişikliyə əsasən, məhkəmə qərarlarının lazımi qaydada və ətraflı şəkildə əsaslandırılması tələb olunur. Dəyişiklik həmçinin bu qaydaya əməl edilmədiyi təqdirdə qanunvericilikdə sanksiyaların nəzərdə tutulmasına icazə verir. | ***YUN / Karakasis*** **(38194/97)**<br><br>**Yekun qərar 17/01/2001**<br><br>**Yekun qətnamə CM/ResDH(2003)6** |
| **İnzibati icraatın sürətləndirilməsi:** İnzibati məhkəmələrdə icraatın həddən artıq uzanması hallarını aradan qaldırmaq və ağlabatan müddətdə məhkəmə araşdırması hüququnu konstitusiya səviyyəsində səmərəli şəkildə təmin etmək üçün 2001-ci il konstitusiya islahatı ilə həddindən artıq formal prosessual tələblər ləğv edildi və bununla da inzibati məhkəmələrdə, xüsusən də Dövlət Şurasında icraatlar sürətləndirildi. İslahat həm də sonuncu ilə aşağı məhkəmələr arasında səlahiyyətlərin yenidən bölüşdürülməsini nəzərdə tuturdu. | ***YUN / Pafitis və başqaları* (20323/92+)**<br><br>**Yekun qərar 26/02/1998**<br><br>**Yekun qətnamə CM/ResDH(2005)65** |
| **Ədalətli məhkəmə araşdırması tələblərinin konstitusion səviyyəyə qaldırılması:** 6-cı maddələrin 1-ci və 3-cü bəndlərinin pozulmasına cavab olaraq və ədalətli məhkəmə araşdırması hüququnu (xüsusilə cinayət prosesində sübutların tədqiqi zamanı riayət edilməli olan çəkişmə prinsipini) konstitusion səviyyəyə qaldırılmaq üçün 1999-cu ildə konstitusiya dəyişikliyi qəbul edilmişdir. Onun əsasında 2001-ci ildə Cinayət Prosessual Məcəlləsinə dəyişiklik edilmiş və nəzərdə tutulmuşdur ki, sonradan məhkəmə çıxışlarında susmaq hüququndan istifadə edən şəxsin məhkəmə araşdırmasına qədər verdiyi ifadələr hakim tərəfindən yalnız bütün maraqlı tərəflərin razılığı olduqda oxuna və istifadə edilə bilər (əgər hakim prosesin gedişində çarpaz dindirmədən imtinanın rüşvət və ya hədə-qorxu nəticəsində baş verdiyini müəyyən etməzsə). | ***İTA / Craxi (№ 2)*** **(34896/97)**<br><br>**Yekun qərar 17/10/2003**<br><br>**Yekun qətnamə CM/ResDH(2005)28** |

| | |
|---|---|
| **Səmərəli hüquqi müdafiə vasitəsi kimi konstitusiya şikayətinin nəzərdə tutulması:** İHAK-ın pozuntularından şikayət etmək, o cümlədən qüsurlu məhkəmə tərkibinə etiraz etmək üçün 2007-ci ildə səmərəli daxili hüquqi müdafiə vasitəsi kimi konstitusiya şikayəti vermək imkanı nəzərdə tutulmuşdur. | **SER / Momcilovic (23103/07)**<br>Yekun qərar 02/07/2013<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2015)64 |
| **Aşağı instansiya məhkəmələrinin qərarlarında uyğunsuzluq halında Konstitusiya Məhkəməsinə müraciət imkanı:** Ədalətli məhkəmə araşdırmasını təmin etməkdən imtinaya etiraz etmək üçün Konstitusiya Məhkəməsinə konstitusiya şikayəti vermək imkanı 2007-ci ildə təsbit edilmişdir və bu əsasda mübahisələndirilən mülki məhkəmə qərarları ləğv edilə və icraatların yenidən başlanmasına qərar verilə bilər. 2009-cu ildə Məhkəmə Reqlamentində edilmiş dəyişikliklər ölkədaxili məhkəmələrə daxili presedent hüququnu uzlaşdırmaq imkanı vermişdir.<br><br>**Konstitusiya şikayəti üzrə icraatda tərəflərin bərabərliyinin təmin edilməsi:** Ədalətli məhkəmə araşdırması hüququ prinsipinin tam tətbiqini təmin etmək məqsədi ilə 2007-ci ildə “Konstitusiya Məhkəməsi haqqında” Qanuna dəyişiklik edilmişdir, həmin dəyişiklik konstitusiya şikayəti barədə məlumatın iş üzrə qərarın təsirinə məruz qala biləcək bütün şəxslərə təqdim edilməsini tələb edir. | ***SER / Vincic (44698/06)***<br>Yekun qərar 02/03/2010<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2017)107<br><br>***SVN/ Gaspari (21055/03)***<br>Yekun qərar 10/12/2009<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)401 |
| **İcraatın sürətləndirilməsi:** Məhkəmə icraatlarının həddən artıq uzanmasının qarşısını almaq üçün qanunvericilik tədbirləri və potensialın artırılması tədbirləri də daxil olmaqla məhkəmə sistemində struktur xarakterli və təşkilati islahatlar (2005-2012) həyata keçirilmişdir. “Konstitusiya Məhkəməsi haqqında” Qanuna edilmiş dəyişikliklər qərarların geniş əsaslandırma olmadan operativ və sürətləndirilmiş qaydada qəbul edilməsinə, konstitusiya şikayətinə icazə verilməsi üçün müddət həddinin dəyişdirilməsinə imkan vermiş və 2006-cı ildə “Əsassız gecikdirmə olmadan məhkəmə araşdırması hüququnun müdafiəsi haqqında” Qanunda mülki və cinayət proseslərində sürətləndirici və kompensasiyaedici hüquqi müdafiə vasitəsi nəzərdə tutulmuşdur. | ***SVN / Lukenda (23032/02)***<br>*Yekun qərar 06/01/2006*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2016)354 |
| **Konstitusiya Məhkəməsində icraatın yenidən başlanması:** Digər məsələlərlə yanaşı, qərəzsiz məhkəmə tərəfindən ədalətli dinləmə keçirilməsindən imtina hallarını aradan qaldırmaq üçün 2014-cü ildə qəbul edilmiş konstitusiya dəyişikliyi məcburi hüquqi qüvvəyə malik beynəlxalq müqavilə əsasında beynəlxalq orqanın qəbul etdiyi qərardan (yəni AİHM-in qərarından) sonra Konstitusiya Məhkəməsinin qərarından şikayət etmək imkanını nəzərdə tutur. | ***SVK / Harabin*** **(58688/11)**<br>Yekun qərar 20/02/2013<br>Fəaliyyət hesabatı |
| **Məhkəmə icraatının sürətləndirilməsi:** Ağlabatan müddətdə məhkəmə araşdırması hüququnun səmərəli konstitusiya müdafiəsinin həyata keçirilməsi üçün 2002-ci ildə Konstitusiyaya dəyişikliklər edildi və icraatın həddindən artıq uzanmasına qarşı konstitusiya şikayətləri verilməsinə icazə verildi; bundan əlavə, Konstitusiya Məhkəməsi səlahiyyətli orqana icraatı ləngimədən aparmaq və icraatın həddindən artıq uzanmasına görə kompensasiya təyin etmək göstərişi verə bilər. | ***SVK / Jori (34753/97)***<br>Yekun qərar 09/02/2001<br>Yekun qətnamə ResDH(2005)67) |
| **Uşağın oğurlanmasından sonra Haaqa Konvensiyasına uyğun olaraq konstitusiya şikayəti üzrə aparılan icraat zamanı tərəflərin bərabərliyinin və uşağın qaytarılması üzrə icraatda valideynin prosessual hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsi:** Müvafiq icraatlarda prosessual hüquqların genişləndirilməsi məqsədilə 2014-cü ildə "Konstitusiya Məhkəməsi haqqında" Qanuna dəyişiklik edilmişdir, həmin dəyişikliyə əsasən, Konstitusiya | ***SVK / Lopez Guio (10280/12)***<br>Yekun qərar 13/10/2014 |

| | |
|---|---|
| Məhkəməsi hazırlıq iclasında şikayətə baxılması barədə qərar qəbul edir və bu barədə müəyyən edilmiş müddət ərzində qeydlərini bildirmək hüququna malik olan bütün maraqlı tərəflərə məlumat verir. | Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2016)235 |
| **Dövlət təhlükəsizliyi məhkəmələrinin müstəqilliyinin və qərəzsizliyinin təmin edilməsi:** Ədalətli məhkəmə araşdırması hüququnu genişləndirmək üçün Konstitusiyaya ilk dəfə 1999-cu ildə mülki şəxslərin işlərinə baxan dövlət təhlükəsizlik məhkəmələrinin tərkibi ilə bağlı dəyişiklik edilmiş, hərbi hakim mülki hakimlə əvəz olunmuşdur. 2004-cü ildə aparılmış konstitusiya islahatı ilə bu məhkəmələr tamamilə ləğv edilmişdir. Daha sonra dövlət təhlükəsizlik məhkəmələrinin yurisdiksiyası ağır cinayət məhkəmələrinə verilmişdir. | *TÜR / Ciraklar (9601/92)*<br>Yekun qərar 28/10/1998<br><br>Yekun qətnamə DH(99)555<br><br>*TÜR / Incal (22678/93)*<br>Yekun qərar 09/06/1998<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2018)356<br>*TÜR /Kalem (70145/01)*<br>Yekun qərar 05/03/2007<br><br>Yekun qətnamə CM/ResDH(2009)103<br><br>*TÜR / Kizilyaprak (9844/02)*<br>Yekun qərar 04/06/2008<br><br>Yekun qətnamə CM/ResDH(2009)108<br><br>*TÜR / Sadak və başqaları (22990/96)*<br>Yekun qərar 17/07/2001<br><br>Yekun qətnamə CM/ResDH(2004)86<br><br>*TÜR / Sertkaya (77113/01)*<br>*Yekun qərar 22/09/2006*<br><br>Yekun qətnamə CM/ResDH(2008)83 |
| **Məhkəmə icraatının sürətləndirilməsi:** Məhkəmə icraatının həddən artıq uzanması problemini həll etmək üçün 2010-cu ildə məhkəmə islahatları strategiyası çərçivəsində Konstitusiyaya dəyişiklik edilmişdir. İnzibati icraatda Dövlət Şurasının yurisdiksiyası ölkə miqyasında tətbiq oluna bilən aktlarla məhdudlaşdırılmışdır; vergi və inzibati işlər üzrə məhkəmələrdə prosedurlar sadələşdirilmişdir. Mülki, əmək və sosial təminat işləri üzrə proseslərə gəlincə, burada da qaydalar sadələşdirilmişdir. Cinayət mühakimə icraatında bir sıra hüquqpozmalar inzibati xəta kimi tövsif edilmişdir. Kassasiya Məhkəməsi yenidən təşkil edilmişdir. Müasir informasiya texnologiyaları tətbiq olunmuşdur. Mübahisələrin həllinin yeni alternativ mexanizmləri terrorizm və ya terrorizmlə mübarizə tədbirləri nəticəsində dəymiş ziyana görə kompensasiya tələblərinə baxılmasında istifadə edilir. Cinayət işlərində barışıq proseduru tətbiq edilib. Statistika islahatların müsbət təsirini nümayiş etdirir. 2013-cü ildə | *TÜR / Ormanci və başqaları (43647/98)*<br><br>*Yekun qərar 21/03/2005*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2014)298 |

| | |
|---|---|
| həddindən artıq uzun sürən icraatlara görə kompensasiya üzrə komissiyaya şikayət verilməsi formasında yeni kompensasiya vasitəsi yaradılmışdır. Onun qərarlarından Regional İnzibati Məhkəməyə şikayət verilə bilər. Konstitusiya Məhkəməsi qarşısında ümumi hüquqi müdafiə vasitəsi artıq 2012-ci ildə tətbiq edilmişdir. | |
| **Hərbi dövlət məhkəmələrinin ləğv edilməsi:** Ali Hərbi İnzibati Məhkəmənin və ümumiyyətlə hərbi məhkəmələrin qərəzsizliyi və müstəqilliyi olmadığına görə məhkəmə araşdırmalarının ədalətli keçirilməməsi hallarını aradan qaldırmaq üçün 2017-ci ildə konstitusiya dəyişiklikləri ilə bu məhkəmələr ləğv edilmiş, ya Kassasiya Məhkəməsinin, ya da Dövlət Şurasının (Ali İnzibati Məhkəmə) idarəçiliyinə verilmişdir. | *TÜR / Tanisma (32219/05)*<br>*Yekun qərar 02/05/2016*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2018)422 |
| **Səmərəli hüquqi müdafiə vasitəsi kimi konstitusiya şikayətinin nəzərdə tutulması:** Milli qanunvericiliyə nisbətən əsas hüquq və azadlıqlara dair beynəlxalq konvensiyaların müddəalarına üstünlük verilməsi üçün Konstitusiyaya 2004-cü ildə dəyişiklik edilmişdir.<br><br>Daha sonra, konvensiya hüquqlarının pozulması halında səmərəli hüquqi müdafiə vasitələrini təmin etmək üçün 2010-cu ildə konstitusiya dəyişikliyi ilə Konstitusiya Məhkəməsinə şikayət edilməsi hüququ verilmişdir. 2012-ci ildə Konstitusiya Məhkəməsi İHAK-ın və/və ya konstitusiya hüquqlarının pozulması ilə bağlı dövlətin məsuliyyətə cəlb edilməsi üçün verilən fərdi şikayətləri qəbul etməyə başlamışdır. | *TÜR / Birləşmiş Kommunist Partiyası və digər 7 iş (19392/92)*<br>*Yekun qərar 30/01/1998*<br><br>Yekun qətnamə CM/ResDH(2007)100<br><br>*TÜR / Özbek, (25327/04)*<br>*Yekun qərar 27/08/2010*<br><br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2013)254 |
| **Məhkəmə intizamı və dövlət hakimiyyəti səlahiyyətlərinin bölgüsü:** Məhkəmə intizamı məsələlərində ədalətli məhkəmə araşdırması hüququnun pozulması hallarına cavab olaraq 2014-2017-ci illərdə aparılan islahatlar institusional və qanunvericilik dəyişikliklərinə gətirib çıxardı. 2016-cı ildə Konstitusiya dəyişikliklərinin qəbulu konkret olaraq Ali Ədliyyə Şurasının yaradılmasına imkan verdi. Avropa Şurasının yardımı ilə aparılan islahatlar məhkəmə sisteminin strukturunun sadələşdirilməsini (üçsəviyyəli məhkəmə sistemi) təmin etdi, islahatlara məruz qalmış Ali Məhkəmə ən yüksək instansiya kimi müəyyən edildi. İslahatlar həmçinin məhkəmə intizamı və hakimlərin karyerası məsələlərini həll etmək üçün Ali Ədliyyə Şurasının səlahiyyətlərinin və institusional potensialının gücləndirilməsini nəzərdə tuturdu. | *UKR / Oleksandr Volkov işlər qrupu (21722/11+)*<br><br>Fəaliyyət planı<br><br>Yekun qərar 27/05/2013 |

## 1.4. Şəxsi həyatın müdafiəsi

| | |
|---|---|
| **Orduda valideynlik məzuniyyəti ilə əlaqədar hüquq bərabərliyi:** AİHM-in cins əlamətinə görə ayrı-seçkilik xarakterli rəftarın mövcudluğunu müəyyən etməsinə cavab olaraq və Konstitusiya Məhkəməsinin qüvvədə olan milli qanunvericilik müddəasının konstitusiyaya zidd olduğunu bəyan etməsindən sonra 2006-cı ildə aparılmış qanunvericilik islahatı nəticəsində “Hərbi kadrların statusu haqqında” Qanuna dəyişiklik edildi, belə ki, indi orduda xidmət edən qadın və kişilərin bərabər əsasda valideynlik məzuniyyəti hüququna malik olması nəzərdə tutulub. | *RUM / Hulea (33411/05)*<br><br>*Yekun qərar 02/01/2013*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2013)194 |
| **Yuqoslaviya Sosialist Federativ Respublikasının keçmiş vətəndaşlarının yaşayış yeri üzrə statusunun tənzimlənməsi:** YSFR-in keçmiş vətəndaşlarına münasibətdə onların yaşayış yeri üzrə statusu ilə bağlı ayrı-seçkiliyi aradan qaldırmaq üçün 2010-cu ildə "Hüquqi status haqqında" Qanuna dəyişiklik edilmiş və onun müddəaları Konstitusiyaya uyğunlaşdırılmışdır. | *SVN / Kuric (26828/06)*<br><br>*Yekun qərar 26/06/2012* |

| | |
|---|---|
| Beləliklə, Qanunvericilikdə və dövlət hakimiyyəti orqanlarının praktikasında aparılmış təkmilləşdirmələr nəticəsində rəsmi olaraq "qeydiyyatdan silinmiş" şəxslərin yaşayış yeri üzrə statusu nizama salınmış və onlara kompensasiya verilmişdir. | Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2016)112 |

## 1.5. Din və vicdan azadlığı/ayrı-seçkilik

| | |
|---|---|
| **Dini zəmində ayrı-seçkiliyə qarşı müdafiə:** Dini əqidələrə görə xüsusilə əmək bazarında ayrı-seçkiliyin qarşısını almaq üçün 1991-ci il Konstitusiyasında nəzərdə tutulan ümumi təminatlar "Dini konfessiyalar haqqında" 2002-ci il tarixli Qanunla və "Ayrı-seçkiliyə qarşı müdafiə haqqında" 2003-cü il tarixli Qanunla genişləndirilmişdir, sonuncu qanun dini əqidələrə görə işdən çıxarılmanı birbaşa qadağan edir. Bu qanun iddiaçıların üzərinə düşən sübutetmə yükünü yüngülləşdirir. | ***BOL / Ivanova (52435/99)***<br>*Yekun qərar 12/07/2007*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2012)155 |
| **Əqidəsinə görə hərbi xidmətdən imtina edənlərin müdafiəsi:** 1991-ci ildə Konstitusiyanın qüvvəyə minməsi ilə 1998-ci ildə "Hərbi mükəlləfiyyətin alternativ xidmətlə əvəz edilməsi haqqında" Qanunun qəbul edilməsi arasındakı dövrdə əqidəsinə görə hərbi xidmətdən imtina edənlərin cəzalandırılması nəticəsində 9-cu maddənin pozulması hallarının aradan qaldırılması və onların konstitusiyada nəzərdə tutulmuş vicdan azadlığını həyata keçirə bilməsi üçün parlament 2002-ci ildə amnistiya aktının qəbulu barədə qərar verdi. | ***BOL / Stefanov (32438/96)***<br><br>*Yekun qərar 03/08/2001*<br><br>Yekun qətnamə ResDH(2004)32 |
| **Əqidəsinə görə hərbi xidmətdən imtina edənlərin ayrı-seçkiliyə qarşı müdafiəsi:** Dini etiqad azadlığı ilə bağlı ayrı-seçkiliyi (14-cü maddə ilə əlaqəli şəkildə götürülmüş 9-cu maddə) aradan qaldırmaq üçün 1997-ci ildə qanunla əqidəsinə görə hərbi xidmətdən imtina edənlərə orduda hərbi qulluq və ya silahsız xidmət əvəzinə mülki xidmət keçmək hüququ verilmişdir. Daha sonra 2001-ci ildə Konstitusiyada alternativ xidmət hüququ təsbit edilmişdir. Bundan əlavə, 2001-ci il tarixli amnistiya qanunu 1997-ci il qanununa qədər təyin edilmiş bütün cəzaların ləğv edilərək cəzalananların məhkumluqlarının götürülməsini nəzərdə tutmuşdur. | ***YUN / Thlimmenos (34369/97)***<br><br>*Yekun qərar 06/04/2000*<br><br>Yekun qətnamə ResDH(2005)89 |

## 1.6. İfadə azadlığı və məlumat əldə etmək imkanı

| | |
|---|---|
| **Birləşmiş Krallıqdakı abort klinikalarının yeri və ya adı və yaxud onlarla əlaqə üsulu ilə bağlı hamilə qadınlara məlumat verilməsində ərizəçi şirkətlərə tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılmasına yönələn konstitusiya dəyişikliyi:** İrlandiya Konstitusiyasına 25 noyabr 1992-ci il tarixli referendumla təsdiq edilmiş 14-cü Düzəlişlə Konstitusiyanın 40-cı maddəsinin 3-cü yarımbəndi aşağıdakı şəkildə dəyişdirildi: "Dövlət doğulmamış uşağın yaşamaq hüququnu tanıyır və ananın da eyni hüququnu lazımi qaydada nəzərə alaraq, öz qanunları ilə bu hüquqa hörmət edilməsinə və praktik cəhətdən mümkün olan dərəcədə onun qorunmasına və müdafiə edilməsinə təminat verir. Bu yarımbənd başqa dövlətdə qanuni yolla əlçatan olan xidmətlərə dair məlumatları qanunla müəyyən edilmiş şərtlər daxilində almaq və ya təqdim etmək azadlığını məhdudlaşdırmır". Daha sonra İrlandiya Parlamenti "İnformasiyanın tənzimlənməsi (Hamiləliyin dayandırılması üçün dövlətin ərazisindən kənarda göstərilən xidmətlər) haqqında" 1995-ci il tarixli Qanun qəbul etdi, həmin qanuna əsasən, müəyyən şərtlərə riayət etməklə, "dövlətin ərazisindən kənarda göstərilən xidmətlərdən istifadə etmək məqsədi ilə hər hansı qadın tərəfindən istənilə biləcəyi ehtimal olunan məlumatların və bu cür xidmətlərə və ya onları göstərən şəxslərə aid informasiyaların verilməsi bundan sonra qanuni sayılır" (2-ci bənd). | ***İRL / "Open Door" və "Dublin Well Woman"* (14234/88 və 14235/88)**<br><br>*Yekun qərar 29/10/1992*<br><br>Yekun qətnamə DH(96)368 |
| **Hüquqi rəy bildirməsi nəticəsində şəxsin dövlət vəzifəsinə təyin edilməsindən imtina ilə bağlı mübahisədə Şahzadənin immunitetinin əhatə dairəsinin aydınlaşdırılması:** 10 və 13-cü maddələrin pozulması nəzərə alınaraq, 2003-cü ildə "Dövlət məhkəməsi haqqında" Qanuna dəyişiklik edildi, belə ki, hər hansı dövlət orqanı tərəfindən, o cümlədən Şahzadənin ayrı-ayrı hərəkətləri nəticəsində baş verən Konvensiyanın pozulması barədə iddialara dair işlərə Dövlət | ***LİX / Wille (28396/95)***<br><br>*Yekun qərar 28/10/1999* |

| | |
|---|---|
| Məhkəməsinin baxmaq səlahiyyətinə aydınlıq gətirən həmin dəyişikliyə əsasən, Şahzadənin konstitusion immuniteti Şahzadənin yalnız dövlət başçısı kimi etdiyi hərəkətlərə şamil olunur, amma fiziki şəxs kimi hərəkətlərinə şamil olunmur. | Yekun qətnamə DH(2004)84 |
| **Böhtan cinayətinin əhatə dairəsinin məhdudlaşdırılması:** İfadə azadlığının (10-cu maddə) pozulması hallarını aradan qaldırmaq və onun səmərəli müdafiəsini təmin etmək üçün 2004-cü ildə Konstitusiyaya dəyişikliklər edildi, belə ki, indi heç kəs bilməyərəkdən həqiqətə uyğun olmayan fikri ifadə etdiyinə görə məsuliyyətə cəlb oluna bilməz. | *NOR / Bladet Tromso AS və Pal Stensas (21980/93)*<br>*Yekun qərar 20/05/1999*<br>Yekun qətnamə DH(2002)70 |

## 1.7. Birləşmək/toplaşmaq azadlığı

| | |
|---|---|
| **Xəbərdarlıq üçün vaxtında bildiriş verilmədən dinc yürüşlərin təşkili:** 11 və 13-cü maddələrin aşkar edilmiş pozuntusuna cavab olaraq, Konstitusiyaya 2015-ci ildə edilmiş dəyişikliklər sərbəst toplaşmaq azadlığına əlavə təminatlar verir və qabaqcadan xəbərdarlıq tələb olunmadan kortəbii (spontan) toplaşmaq hüququnu təsbit edir. 2011-ci ildə "Toplantılar haqqında" Qanun "toplantı" termininin bütün növ yığıncaqları, mitinqləri, yürüşləri və nümayişləri özündə birləşdirən geniş anlayışını vermiş və bildiriş prosesini, xüsusilə bildirişin qeydiyyatını, müvafiq dinləmələri, qərar qəbul etmə prosesini və təşkilatçıların toplantıda iştirakını tənzimləmişdir. Tənzimləyici orqan toplantının təşkili üçün verilmiş bildirişlə bağlı qərar qəbul etmək üçün maksimum 48 saata malikdir. Gecikmə halında bildiriş təmin edilmiş sayılır. İnzibati Prosessual Məcəllə tənzimləyici orqanın qərar və hərəkətlərindən məhkəmələrə şikayət verilməsi imkanını nəzərdə tutur. | *ERM / Ermənistan Helsinki Komitəsi (59109/08)*<br>*Yekun qərar 30/06/2015*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2017)297 |
| **Toplantı keçirilməsindən imtinaya qarşı hüquqi müdafiə vasitəsinin tətbiqi:** 11 və 13-cü maddələrin pozulması hallarını aradan qaldırmaq üçün 2006-cı ildə "Yol hərəkəti haqqında" Qanunun mübahisələndirilən müddəaları konstitusiyaya zidd elan edildi, belə ki, planlaşdırılan yürüşə icazə verilməməsi üçün səlahiyyətli orqanlar həmin müddəalara istinad edirdilər. "Toplantılar haqqında" 2015-ci il tarixli Qanun bələdiyyə orqanlarının üzərinə toplantının planlaşdırılan tarixindən ən azı 96 saat əvvəl qərar qəbul etmək öhdəliyi qoyur. Qadağalara qarşı şikayətlər Regional Məhkəməyə verilə bilər, o, 24 saat ərzində qərar çıxarır; onun qərarından isə 24 saat ərzində Apellyasiya Məhkəməsinə şikayət verilə bilər. | *POL / Baczkowski və başqaları (1543/06)*<br>*Yekun qərar 24/09/2007*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2015)234 |

## 1.8. Mülkiyyətin müdafiəsi

| | |
|---|---|
| **Kommunist rejimi dövründə milliləşdirilmiş əmlaka görə kompensasiya:** Mülkiyyət hüquqlarına qarşı aşkar edilmiş müdaxiləni aradan qaldırmaq üçün 2015-ci ildə Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilmiş və Venesiya Komissiyası tərəfindən müsbət qiymətləndirilmiş yeni kompensasiya mexanizmi yaradılmışdır. Sonradan iddiaların qiymətləndirilməsi prosesində və qəbul edilən və icra olunan yekun qərarların sayında əhəmiyyətli nəticələr əldə edilmişdir. Bütün kompensasiya tələblərinin ödənilməsi üçün dövlət büdcəsindən vəsait ayrılmışdır. | *ALB / Manushaqe Puto və başqaları (604/07)*<br>*Yekun qərar 23/03/2015*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)349 |
| **Dövlət tikinti layihələrinin həyata keçirilməsi məqsədilə mülkiyyət və/və ya istifadə hüququna xitam verilməsinə qarşı müdafiə:** Mülkiyyət hüquqlarının müdafiəsinin konstitusion təminatının həyata keçirilməsi məqsədilə "Cəmiyyətin və dövlətin ehtiyacları üçün ekspropriasiya haqqında" 2006-cı il tarixli Qanunla məhkəmə qaydasında ekspropriasiya proseduru, o cümlədən kompensasiya hüququ tənzimləndi. Qanun yaşayış yerlərindən istifadəyə müdaxilə hallarını da əhatə edir. Konstitusiya Məhkəməsi 2009-cu il qərarı ilə onun | *ERM / Minasyan və Semerjyan (27651/05+)*<br>*Yekun qərar 23/09/2009*<br>Fəaliyyət hesabatı |

| | |
|---|---|
| müddəalarının konstitusiyaya uyğunluğunu təsdiqləyib və ölkədaxili məhkəmələr üçün onun tətbiqi qaydalarını müəyyən edib. Daha sonra 2015-ci ilin dekabrında Konstitusiyaya mülkiyyətin müdafiəsi prinsipini təsbit edən dəyişiklik edildi, həmin dəyişikliyə əsasən, yalnız ictimai maraqlar naminə qanunla məhdudiyyətlərin tətbiqinə icazə verilir. | Yekun qətnamə CM/ResDH(2015)191<br>*ERM / Safaryan (576/06)*<br>*Yekun qərar 21/04/2016*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2017)133 |

## 1.9. Seçki hüquqları

| | |
|---|---|
| **Kipr türklərinin səsvermə hüquqlarının müdafiəsi:** Kipr türklərinin səs verməsinin mümkünsüzlüyünü aradan qaldırmaq üçün (1 saylı Protokolun 3-cü maddəsi və 13-cü maddə) və bütün vətəndaşların səsvermə hüquqlarının konstitusion təminatına uyğun olaraq, “Respublikanın azad ərazisində daimi yaşayan türk icmasının üzvləri tərəfindən seçmək və seçilmək hüququnun həyata keçirilməsi haqqında” 2006-cı il tarixli Qanunla Kipr Respublikasında daimi yaşayan türk əsilli Kipr vətəndaşlarının parlament, bələdiyyə və icma seçkilərində səsvermə və seçilmək hüququ qüvvəyə mindi. Onlara həmçinin prezident seçkilərində səs vermək hüququ verildi. | *KİP / Aziz (69949/01)*<br>*Yekun qərar 22/09/2004*<br>Yekun qətnamə CM/ResDH(2007)77 |
| **Məhbusların səsvermə hüquqlarının müdafiəsi:** Məhbusların səsvermə hüququna qoyulmuş konstitusiya qadağasını ləğv etmək məqsədilə 2011-ci ildə Konstitusiyaya “az ağır cinayətlər törətməkdə” təqsirli bilinən məhbusların səsvermədə iştirakına icazə vermək üçün dəyişiklik edilmişdir. Seçki Məcəlləsi də buna uyğunlaşdırılmışdır. 2017-ci ildə yeni konstitusiya dəyişikliyi yalnız xüsusilə ağır cinayət törətməyə görə məhkum olunaraq azadlıqdan məhrum edilmiş şəxslərin səsvermə hüquqlarını istisna edir. | *GÜR / Ramishvili* (48099/08)<br>*Yekun qərar 31/05/2018*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2019)49 |
| **Deputat mandatının geri alınmasından müdafiə:** 2001-ci il konstitusiya müddəasının tətbiqi ilə əlaqədar olaraq hər hansı peşə fəaliyyəti ilə məşğul olan parlament üzvlərinin deputatlıqdan məhrum edilməsini aradan qaldırmaq üçün 2008-ci ildə Konstitusiyaya dəyişiklik edildi, dəyişikliyə əsasən, deputat tərəfindən həyata keçirilməsi qadağan olunan müəyyən peşə fəaliyyətləri xüsusi qanunla müəyyən edə bilər. | *YUN / Lykourezos* (33554/03)<br>*Yekun qərar 15/09/2006*<br>Yekun qətnamə CM/ResDH(2010)171 |
| **Fəaliyyət qabiliyyəti olmayan şəxslərin səsvermə hüquqlarının müdafiəsi:** 2012-ci ildə fəaliyyət qabiliyyəti olmayan şəxslərin səsvermə hüququndan Konstitusiya ilə məhrum edilməsini ləğv etmək üçün Konstitusiyaya dəyişiklik edildi (və müvafiq təfsilatlar 2013-cü ildə Mülki Məcəlləyə və Seçki Qaydalarına daxil edildi), dəyişikliyə əsasən, məhkəmələr qanunvericiliyə uyğun olaraq hər bir konkret halda fəaliyyət qabiliyyəti olmayan hər bir şəxsin fərdi durumunun onun qəyyuma ehtiyacı olub-olmadığını və səsvermə hüquqlarının məhdudlaşdırılmasına əsas verib-vermədiyini müəyyənləşdirməyə borcludurlar. | *MAC / Alajos Kiss işlər qrupu* (38832/06)<br>*Yekun qərar 20/08/2010*<br>Fəaliyyət hesabatı |
| **Seçki məsələlərində səmərəli hüquqi müdafiə vasitələrinin tətbiqi:** Milli azlıqların parlamentdə təmsil olunması ilə bağlı seçkidən sonra yaranan mübahisələri və sözügedən seçki qanunvericiliyinin şərhi ilə bağlı məhkəmə nəzarətinin olmaması problemini həll etmək üçün 2015-ci ildə qanunvericilik islahatları aparılaraq iki muxtar orqan olan Daimi Seçki Orqanı və Mərkəzi Seçki Bürosu yaradıldı. Konstitusiya Məhkəməsinin presedent hüququna əsasən, | *RUM / Grosaru (78039/01)*<br>*Yekun qərar 02/06/2010*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə |

| | |
|---|---|
| Mərkəzi Seçki Bürosunun qərarları onun yurisdiksiyası çərçivəsində qəbul etdiyi inzibati aktlardır və maraqlı şəxslər tərəfindən adi inzibati məhkəmələrdə mübahisələndirilə bilər. | CM/ResDH(2016)322 |
| **Deputat mandatlarına vaxtından əvvəl xitam verilmasinə qarşı müdafiə:** Mandatların partiya nəzarətində olması praktikası səbəbindən deputatların boş istefa ərizələrini təqdim etməsi praktikası kimi mübahisə predmeti olan təcrübəni aradan qaldırmaq və beləliklə, fikir ayrılıqları olduqda deputat mandatlarına vaxtından əvvəl xitam verilməsinin qarşısını almaq üçün 2006-cı ildə Konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində qaydalar dəyişdi və deputatların öz mandatlarını mənsub olduqları siyasi partiyaya təhvil verməkdə sərbəstliyi təmin edildi, habelə hüquqi müdafiə vasitəsi qismində konstitusiya şikayəti imkanı nəzərdə tutuldu. AŞ Parlament Assambleyasının 2008 və 2010-cu illərdə qəbul etdiyi iki Qətnamənin ardınca 2011-ci ildə "Parlament üzvlərinin seçkisi haqqında Qanuna dəyişiklik və əlavələr haqqında" Qanun qəbul edildi və Venesiya Komissiyası və ATƏT/DTİHB-nin birgə rəyi nəzərə alınaraq "partiyaların nəzarət etdiyi mandatlar" və boş istefa ərizələri praktikası ləğv edildi. "Konstitusiya Məhkəməsi haqqında" 2007-ci il tarixli Qanuna əsasən, Konstitusiya Məhkəməsi seçki mübahisələrinə baxılmasında müstəsna səlahiyyətə malikdir və İHAK-a uyğun olmayan qərarları ləğv edə və beləliklə, kompensasiya tələbləri üçün hüquqi əsas yarada bilər. | ***SER / Paunovic və Milivojevic (41683/06)***<br><br>***Yekun qərar 24/08/2016***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)193** |
| **İmpiçment prosedurundan sonra mandatdan daimi və geridönməz şəkildə məhrum edilməkdən müdafiə:** 2012-ci ilin sentyabrında ərizəçinin parlament seçkilərində iştirakına qoyulan daimi qadağanın aradan qaldırılması üçün qanunvericilikdə dəyişiklik istiqamətində ilk cəhd kontekstində Litva Konstitusiya Məhkəməsi müəyyən etdi ki, daxili qanunvericiliyi 1 saylı Protokolun 3-cü maddəsinə uyğunlaşdırmaq üçün Konstitusiyaya dəyişikliklər edilməsi zəruridir. Zəruri konstitusiya dəyişikliklərini qəbul etmək üçün bir neçə uğursuz cəhddən sonra tələb olunan konstitusiya dəyişikliyi 21 aprel 2022-ci ildə qəbul edildi və 22 may 2022-ci ildə qüvvəyə mindi. Bu dəyişikliyə əsasən, vəzifəsindən kənarlaşdırılan və ya Litva Parlamentinin (Seym) üzvü kimi mandatı impiçment proseduru vasitəsilə Seym tərəfindən ləğv edilən şəxslər parlament seçkilərində iştirak etmək baxımından "daimi və geridönməz" qadağaya məruz qalmayacaq, amma Seymə seçkilərdə "ən azı on illik" müddətdən sonra namizəd kimi iştirak edə biləcəklər. Müvafiq olaraq, indi ərizəçinin qeydiyyata alınmaq üçün müraciət etmək və gələcək parlament seçkilərində namizəd kimi iştirak etmək hüququ var. | ***LİT / Paksas (34932/04)***<br><br>***Yekun qərar 06/01/2011***<br><br>***Yekun qətnamə CM/ResDH(2022)253*** |

## 1.10. Təhsil hüququ

| | |
|---|---|
| **Məktəb təhsilində ayrı-seçkiliyə qarşı müdafiə:** Xüsusilə ana dili fransız dili olan, bəzi hollanddilli rayonlarda yaşayan və fransız dilində dərslərdə iştirak edə bilməyən uşaqların məruz qaldığı ayrı-seçkiliyi aradan qaldırmaq üçün qanunvericilik islahatları, o cümlədən konstitusion və institusional islahatlar aparıldı və 1970-ci ildə yekunlaşdırıldı.<br><br>Bu islahatlara holland, fransız və alman icmalarının və Flamand, Vallon və Brüssel bölgələrinin tanınması və orada təhsilin təşkili daxildir. Məhkəmə qərarının əhatə etdiyi altı ucqar rayon/kommuna Flamand bölgəsinin ayrılmaz hissəsinə çevrildi. Dil icmalarının mədəni homogenliyini təşviq etmək üçün bu rayonlarda fransız dilində təhsilin orada valideynləri ilə birlikdə yaşayan fransız dilli uşaqlarla məhdudlaşdırılması qanuni addım oldu. Beləliklə, Avropa Məhkəməsinin qeyd etdiyi sırf yaşayış yerinə əsaslanan ayrı-seçkiliyin yuxarıda qeyd olunan islahatlar nəticəsində aradan qalxdığı bildirilir. | ***BEL / Belçika dil işləri qrupu (1474/62)***<br><br>***Yekun qərar 23/07/1968***<br><br>**Yekun qətnamə 12/04/1972**<br><br>**Belçika Hökumətinin Memorandumu (1972)** |

# 2. KONSTİTUSİYA MƏHKƏMƏLƏRİNİN PRESEDENT HÜQUQUNDA DƏYİŞİKLİKLƏR

## 2.1. Ölkədən çıxarılmaya/deportasiyaya qarşı müdafiə

| | |
|---|---|
| **Ölkədən çıxarılma hallarında qəddar rəftardan müdafiənin təkmilləşdirilməsi:** 3-cü maddənin pozulması AİHM-in qərarı ilə müəyyən edildikdən sonra ölkədən çıxarılma hallarına qarşı səmərəli müdafiənin təmin edilməsi üçün Konstitusiya Məhkəməsi öz praktikasında tez bir zamanda dəyişiklik etdi. Belə ki, sözügedən müdafiə təkcə əvvəllər olduğu kimi dövlət orqanları tərəfindən deyil, həm də qeyri-dövlət subyektləri tərəfindən törədilən, həyat və ya sağlamlıq riskinə səbəb olan hallara şamil edilir. Praktikada sonrakı dəyişiklik 2002-ci ildə həyata keçirildi ki, bununla da “Əcnəbilər haqqında” 1992-ci il tarixli Qanuna dəyişiklik edildi. | ***AVS / Ahmed (25964/94)***<br>*Yekun qərar 17/12/1996*<br>Yekun qətnamə ResDH(2002)99 |
| **Sığınacaqla bağlı müraciətlər avtomatik rədd edildiyi halda qəddar rəftardan müdafiənin təmin edilməsi:** Sığınacaq üçün vəsatətlərin rədd edilməsi barədə qərarlara məhkəmə tərəfindən yenidən baxılması imkanının nəzərdə tutulmamasını AİHM 13 və 3-cü maddələrin pozuntusu kimi müəyyən etmişdi ki, bunu da aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2008-ci ildə əcnəbilərin ərazidə qalmaları haqqında qanunun müvafiq müddəalarını ləğv etdi, həmin müddəalar inzibati qaydada ölkədən çıxarılma haqqında qərardan şikayət verilməsinə mane olurdu. İnzibati qaydada ölkədən çıxarılma haqqında qərardan şikayət verilməsi avtomatik dayandırıcı qüvvəyə malikdir. | ***ÇEX / Diallo (20493/07)***<br>*Yekun qərar 28/11/2011*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2013)141 |

## 2.2. Həbsdə saxlanılan şəxsin hüquqlarının müdafiəsi

| | |
|---|---|
| **Həbsdə saxlanmanın qanuniliyinin yoxlanılması:** 5 və 6-cı maddələrin pozuntusu müəyyən edildikdən sonra həbs müddətinin uzadılmasının qanuniliyini təmin etmək üçün 2017-ci ildə Konstitusiya Məhkəməsi konstitusiya şikayətlərini qəbuledilməz elan etmək praktikasında dəyişiklik etdi, belə ki, əvvəllər həmin şikayətlər qəbuledilməz elan olunarkən belə əsas gətirilirdi ki, həbs müddətinin uzadılması barədə yeni qərar artıq qəbul edilib və ya təqsirləndirilən şəxs Konstitusiya Məhkəməsinin qərarı qəbul edilməzdən əvvəl azadlığa buraxılıb. Bundan əlavə, Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik edərək bildirdi ki, eyni şəxs barəsində digər cinayət işi üzrə icraatın davam etməsi həbs müddətinin uzadılmasına haqq qazandıra bilməz və təqsirsizlik prezumpsiyasının pozuntusunu təşkil edir. | ***XOR / Krnjak (11228/10)***<br>*Yekun qərar 28/11/2011*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)200 |
| **Təqsirsizlik prezumpsiyasının və həbs qətimkan tədbirinə görə kompensasiyanın təmin edilməsi:** Sübutların olmaması səbəbindən bəraət hökmünün çıxarılmasından sonra məhkəməyəqədər həbsə görə kompensasiya tələbi kontekstində daxili məhkəmələrin təqsirsizlik prezumpsiyası prinsipi ilə bağlı mübahisəli praktikasını korrektə etmək üçün Konstitusiya Məhkəməsi 2017-ci ildə çıxardığı qərarda AİHM-in son dövrə aid müvafiq məhkəmə təcrübəsini nəzərə alaraq, xüsusilə qeyd etdi ki, kompensasiya tələbi üzrə icraat çərçivəsində şəxsdən təqsirsizliyinə dair sübut təqdim etməsini tələb etmək əsassızdır və təqsirsizlik prezumpsiyası prinsipinə qəsddir. | ***İSP/ Tendam (25720/05)***<br>*Yekun qərar 13/10/2010*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)344 |
| **Həbs müddətinin prokurorluq tərəfindən uzadılması imkanlarının məhdudlaşdırılması:** AİHM tərəfindən müəyyən edilmiş həbs müddətinin qanunsuz uzadılmasını (5-ci maddənin pozulması) aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2017-ci ildə həbs qətimkan tədbirinin uzadılması üçün vəsatət verilməsinin müddətini müəyyən etdi. O bildirdi ki, davam edən həbs müddətinin bitməsinə azı beş gün qalmış vəsatət vermə şərti məcburi şərtdir və bir daha qeyd etdi ki, bu müddətə əməl edilməməsi həbsdə saxlanma müddətinin uzadılması üçün vəsatət vermək hüququnun itirilməsinə səbəb olur. Bu izahatdan əvvəl 2016-cı ildə Cinayət Prosessual Məcəlləsinə belə bir dəyişiklik edilmişdi ki, prokuror tərəfindən müddətə əməl edilmədikdə, həbs qətimkan tədbirinin uzadılması barədə vəsatət məhkəmə iclası keçirilmədən işin istintaqını aparan hakim tərəfindən əsaslandırılmış qərarla rədd edilir. | ***MOL / Ialamov (65324/09)***<br>*Yekun qərar 12/12/2017*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)329 |

## 2.3. Ədalət mühakiməsinə çıxış və ədalət mühakiməsinin səmərəli fəaliyyəti

| | |
|---|---|
| **Məhkəmə sisteminin islahatı və məhkəmə icraatlarının sürətləndirilməsi:** 7-ci maddədə təsbit olunmuş qanunsuz cəzalandırılmamaq prinsipinin tətbiqini təmin etmək üçün 2001-ci ildən Albaniyada qanunvericilik bazası təkmilləşdirilmişdir. Bundan əlavə, 2004-cü ildə Konstitusiya Məhkəməsi qərara almışdır ki, məhkəmə səlahiyyətlərinin tətbiqi yuxarı instansiya məhkəmələrinin nəzarəti altındadır. Hakimlərin peşə bacarıqları Ali Ədliyyə Şurası tərəfindən mütəmadi olaraq qiymətləndirilir və o həmçinin hakimi peşə səriştəsizliyi halında vəzifəsindən azad edə bilər. | *ALB / Alimucaj (20134/05)*<br><br>*Yekun qərar 09/07/2012*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2016)102 |
| **Apellyasiya məhkəmələrinə effektiv çıxış imkanı:** Məhkəməyə çıxış imkanını təmin etmək üçün Konstitusiya Məhkəməsi 2012-ci ildə apellyasiya icraatında əlavə təqdimatlar üçün müddətlərlə bağlı praktikasında dəyişiklik etdi. O, fərdin iradəsindən asılı olmayan hallara görə apellyasiya müddətlərinin keçməsinə səbəb olan müəyyən müddəaları konstitusiyaya zidd elan etdi və bildirdi ki, daxili məhkəmələrə apellyasiya şikayətlərinin qəbuledilənliyi barədə qərarların qəbulu zamanı qeyri-məhdud sərbəstlik verilməməlidir. 2009-cu ildə dəyişiklik edilmiş Cinayət Prosessual Məcəlləsində ilk dəfə olaraq kassasiya instansiyası məhkəməsinə hüquqi məsələlər üzrə şikayətlərin verilməsi müddətləri uzadılmış, 2012-ci ildə isə Cinayət Prosessual Məcəlləsinin layihəsində apellyasiya şikayətlərinin verilməsi müddətləri bir qədər də uzadılmış və apellyasiya prosesində əlavə təqdimatların verilməsi üçün müddətlərə dair dəqiq müddəalar nəzərdə tutulmuşdur. | *ERM / Mamikonyan (25083/05)*<br><br>*Yekun qərar 04/10/2010*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2015)142 |
| **Məhkəmə qərarlarının adekvat əsaslandırılması:** AİHM-in qərarından sonra ədalətli məhkəmə araşdırması tələblərinin həyata keçirilməsi məqsədilə Konstitusiya Məhkəməsi 2010-cu ildə öz qiymətləndirmələrində vurğulamışdır ki, daxili məhkəmələrin qərarlarının əsaslandırılması konstitusion zərurətdən irəli gəlir. | *ERM / Sholokhov (40358/05)*<br><br>*Yekun qərar 31/10/2012*<br><br>Fəaliyyət hesabatı<br><br>Yekun qətnamə CM/ResDH(2015)116 |
| **Tərəflərin bərabərliyi prinsipinin qorunması:** Məhkəmə prosesində ədalətli məhkəmə araşdırması hüququnu təmin etmək üçün 1985-ci ildə Konstitusiya Məhkəməsi Federal Qida Nəzarəti İnstitutunun ekspertinə və yalnız şahid qismində dinlənilmiş müdafiə tərəfinin ekspertinə münasibətdə qeyri-bərabər rəftarı nəzərdə tutan Ərzaq Məcəlləsinin müddəalarını konstitusiyaya zidd elan etdi. | *AVS / Bonisch (8658/79)*<br><br>*Yekun qərar 06/05/1985*<br><br>Yekun qətnamə DH (87)1 |
| **Məhkəməyə çıxış imkanı və həddindən artıq uzun sürən məhkəmə icraatlarına qarşı sürətləndirici hüquqi müdafiə vasitələri:** 6-cı maddənin 1-ci bəndi ilə tələb olunan məhkəməyə səmərəli çıxışı təmin etmək üçün Konstitusiya Məhkəməsi 2004-cü ildə qərara aldı ki, bu işdə konstitusiya hüquqları olan ağlabatan müddət ərzində məhkəmə araşdırması hüququ və məhkəməyə müraciət etmək hüququ pozulub. O, aidiyyəti məhkəməyə bir il müddətində iş üzrə qərar çıxarmaq barədə göstəriş verdi və iddiaçıya kompensasiya təyin etdi. Beləliklə, Konstitusiya Məhkəməsinin presedent hüququnun inkişafı nəticəsində məhkəməyə müraciət etmək hüququnun pozulmasına, xüsusən də icraatın uzun sürməsi ilə bağlı iddia edilən pozuntulara qarşı yeni daxili hüquqi müdafiə vasitəsi yaranmışdır. | *XOR / Kutic işlər qrupu (48778/99)*<br><br>*Yekun qərar 01/06/2002*<br><br>Yekun qətnamə CM/ResDH(2006)3 |

| | |
|---|---|
| **Məhkəmə proseslərində sübutların düzgün təqdim edilməsi ilə bağlı qaydaların təkmilləşdirilməsi:** Ədalətli məhkəmə araşdırması hüququnu effektiv şəkildə təmin etmək üçün Konstitusiya Məhkəməsi 2013-cü ildə AİHM-in qənaətlərinə uyğun olaraq öz presedent hüququnda dəyişiklik etdi. Xüsusilə cinayət prosesində sübutların qiymətləndirilməsi zamanı adekvat izahatın vacibliyini vurğuladı. Bundan əlavə, 2013-cü il tarixli başqa bir qərarında Konstitusiya Məhkəməsi AİHM-in qənaətlərini bir daha təkrar edərək bildirdi ki, tərəflərin tələb və qeydləri məhkəmə tərəfindən dinlənilmədikcə, ədalətli məhkəmə araşdırması hüququ səmərəli sayıla bilməz. | ***XOR / Ajdaric (20883/09)***<br>***Yekun qərar 04/06/2012***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2016)38** |
| **Konstitusiya şikayətinə baxılması üçün Konstitusiya Məhkəməsinə müraciət imkanının təmin edilməsi:** Məhkəməyə müraciət hüququnun müdafiəsi məqsədilə Konstitusiya Məhkəməsi 2013-cü ildə konstitusiya şikayətini prosessual əsaslara görə qəbuledilməz elan edərkən yol verdiyi səhvlərin aradan qaldırılması və şəxsin belə səhvin düzəldilməsi üçün müraciətinin qəbul edilməsi praktikasında dəyişiklik etdi. Belə ki, Konstitusiya Məhkəməsi əvvəlcə səhvin düzəldilməsi barədə ərizəçinin vəsatətini icraatın bərpası təklifi kimi nəzərə alır, sonra isə konstitusiya şikayətini mahiyyəti üzrə araşdırır. | ***XOR / Camovski (38280/10)***<br>***Yekun qərar 23/01/2013***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2015)61** |
| **Konstitusiya Məhkəməsinə müraciət imkanı:** Özünün nəzarət dairəsini genişləndirmək üçün Konstitusiya Məhkəməsi 2014-cü ildə özünün presedent hüququnda dəyişiklik edərək, Ali Məhkəmə tərəfindən hüquqi məsələlərə görə qəbuledilməz elan edilən, yəni müvafiq tərəfin, hətta onun özü hüquqşünas olsa belə, ixtisaslı vəkil tərəfindən verilməməsi səbəbindən qəbul edilməyən şikayət ərizələri ilə bağlı konstitusiya şikayətlərini qəbul etməyə başladı. | ***XOR / Omerovic (№2) (22980/09)***<br>***Yekun qərar 14/04/2014***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2016)57** |
| **Həddindən artıq formalizmdən müdafiə:** Kompensasiya iddiası irəli sürmək üçün prosessual tələbin həddən artıq formal təfsiri ilə bağlı məhkəməyə müraciətin rədd edilməsi problemini həll etmək üçün Konstitusiya Məhkəməsi 2014-cü ildə öz presedent hüququnda dəyişikliklər etməyə başladı. 2017-ci ildə Ali Məhkəmə də onun qiymətləndirmələrinə əməl etdi. 2019-cu ildə Konstitusiya Məhkəməsi iddia tələblərinin lazımi qaydada təqdim edilməməsi səbəbindən dəymiş ziyanın ödənilməsi ilə bağlı iddiaların rədd edilməsini həddindən artıq formalist yanaşma hesab etdi və bunu özünün presedent hüququnda təsdiq etdi. | ***XOR / Buvac (47685/13)***<br>***Yekun qərar 06/09/2018***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2019)72** |
| **İcraatların sürətləndirilməsi və səmərəli hüquqi müdafiə vasitəsi:** 6-cı maddəsinin 1-ci bəndində və 13-cü maddədə tələb olunduğu kimi, inzibati icraatları sürətləndirmək və operativ hüquqi müdafiə vasitəsini təmin etmək üçün Konstitusiya Məhkəməsi özünün əvvəlki məhkəmə təcrübəsində dəyişiklik etdi və presedent hüququnu Konvensiya standartlarına uyğunlaşdırdı. AİHM-in bu iş üzrə qərarına qədər Konstitusiya Məhkəməsi icraatın ümumi müddətini qiymətləndirərkən inzibati orqanlardakı icraat müddətini nəzərə almırdı. 2007-ci ildə o, işin icraatının yuxarıda qeyd olunan dövrünü nəzərə alacağını bildirdi. | ***XOR / Pocuca (38550/02)***<br>***Yekun qərar 29/09/2006***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2018)429** |
| **Konstitusiya şikayətlərinin qəbuledilənliyi:** Məhkəməyə müraciət etmək hüququnun pozulması hallarını aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2012-ci ildə Mülki Prosessual Məcəllənin müvafiq müddəasını konstitusiyaya zidd elan etdi, belə ki, həmin müddəaya əsasən, hüquqi məsələlər üzrə apelyasiya şikayəti yalnız o halda qəbul edilirdi ki, apellyasiya məhkəməsinin qərarı həlledici hüquqi əhəmiyyət kəsb edən məsələ ilə əlaqədar olsun. O həmçinin qeyd etdi ki, bu müddəada həmin vəziyyətlər üçün aydın meyarlar müəyyən edilməyib. Daha sonra, 2013-cü ildə qəbul edilmiş yeni qanunda kassasiya şikayətindən sonra konstitusiya şikayəti verilməsi üçün riayət edilməli meyarlar və müddətlər müəyyən edildi. | ***ÇEX / Adamicek (35836/05)***<br>***Yekun qərar 12/01/2011***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2013)58** |

| | |
|---|---|
| Konstitusiya Məhkəməsinin şikayətlərin qəbuledilənliyinə dair qaydalarında həddindən artıq formalizmi aradan qaldırmaq üçün (AİHM tərəfindən müəyyən edilmiş 6-cı maddənin 1-ci bəndinin pozuntusu) Konstitusiya Məhkəməsi 2003-cü ildə fövqəladə şikayətin və aşağı instansiya məhkəməsinin qərarından konstitusiya şikayətinin eyni vaxtda təqdim edilməsinə icazə verməklə öz təcrübəsini dəyişdi. Daha sonra, parlament 2004-cü ildə “Konstitusiya Məhkəməsi haqqında” Qanuna dəyişiklik etdi, dəyişiklikdə nəzərdə tutulurdu ki, qəbuledilənliyi bütünlüklə səlahiyyətli orqanın diskresion qiymətləndirməsindən asılı olan fövqəladə şikayətin müvafiq iş Konstitusiya Məhkəməsinə göndərilməzdən əvvəl təqdim edilməsi mütləq deyil. | ***ÇEX / Vodarenska Akciova Spolecnost, A.S. (73577/01)***<br><br>***Yekun qərar 07/07/2004***<br><br>**Yekun qətnamə CM/ResDH(2008)27** |
| **İnzibati məhkəmələrə müraciət imkanı:** Məhkəməyə müraciət imkanını təmin etmək üçün Konstitusiya Məhkəməsi 2001-ci ildə Mülki Prosessual Məcəllənin inzibati icraata aid bölməsinin ləğv edilməsi barədə qərar qəbul etmişdir, həmin bölmədə nəzərdə tutulurdu ki, məhkəmələr inzibati prosessual qərarlara yenidən baxmaq səlahiyyətinə malik deyillər. 2003-cü ildə sözügedən Məcəllədə aparılan islahatlardan sonra ərizəçilər hüquqları pozulduqda inzibati orqanın aktı ilə bağlı qərarın ləğvini tələb edə bilərlər. | ***ÇEX / Kilian (48309/99)***<br>***Yekun qərar 06/06/2005***<br><br>**Yekun qətnamə CM/ResDH(2006)70** |
| **Cinayət qanununun retroaktiv (geriyə) tətbiqinin yolverilməzliyi:** 7-ci maddədə nəzərdə tutulan qanunsuz cəzalandırılmamaq prinsipini həyata keçirmək üçün 2014-cü ildə Konstitusiya Məhkəməsi 2003-cü il tarixli Cinayət Məcəlləsində nəzərdə tutulmuş soyqırımı termininin geniş çərçivəli anlayışının (o, sosial və siyasi qrupları da əhatə edirdi) Konstitusiyaya uyğun olduğunu, lakin geriyə tətbiq edilməli olmadığını qərara aldı. Prokurorluq orqanları və ölkədaxili məhkəmələr Konstitusiya Məhkəməsinin bu göstərişini və AİHM-in qərarını nəzərə alaraq öz praktikalarını ona uyğunlaşdırdılar. Beləliklə, indi hakimiyyət orqanları siyasi qrupları soyqırımına görə retrospektiv qaydada cinayət təqibinə məruz qoymaqdan və məhkum etməkdən çəkinirlər. Müvafiq olaraq, 2016-cı ildə Ali Məhkəmə soyqırımı ittihamı ilə üzləşmiş şəxs barəsindəki bəraət hökmünü qüvvədə saxladı. | ***LİT / Vasiliauskas (35343/05)***<br><br>***Yekun qərar 20/10/2015***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)430** |
| **Cinayət işinin yenidən başlanması imkanının təmin edilməsi:** AİHM tərəfindən müəyyən edilmiş bəzi cinayət işlərinin ədalətsiz həlli hallarını aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2011-ci il tarixli qərarına əlavədə qeyd etdi ki, Cinayət Prosessual Məcəlləsinin müvafiq müddəası bu məsələnin həlli üçün yetərli deyil, belə ki, o, AİHM-in qərarından sonra iş üzrə qərara yenidən baxılması imkanını yaratmır, daha sonra o, yuxarıda qeyd olunan Məcəlləyə dəyişiklik edildikdən sonra müvafiq müddəanı AİHM-in qərarı əsasında cinayət işinin yenidən başlanmasına imkan verən müddəa kimi şərh etdi. | ***İTA / Bracci (36822/02)***<br><br>***Yekun qərar 15/02/2006***<br><br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2014)102** |
| **Cinayət prosesinin ədalətliliyi:** Məhkəmənin qərəzsiz olmaması ilə bağlı gəlinən nəticəni həll etmək üçün 1996-cı ildə Konstitusiya Məhkəməsi Cinayət Prosessual Məcəlləsinin müvafiq müddəasını konstitusiyaya zidd elan etdi, belə ki, həmin müddəa prosesin əvvəlki mərhələsində təqsirləndirilən şəxsin təqsirliliyi məsələsinin həllində iştirak etmiş hakimin sonrakı mərhələdə eyni məsələnin həllində iştirakını istisna etmirdi. | ***İTA / Rojas Morales (39676/98)***<br><br>***Yekun qərar 16/02/2001***<br><br>**Yekun qətnamə CM/ResDH(2008)51** |
| **Konstitusiya şikayətlərinin qəbuledilənliyi:** Məhkəməyə müraciət imkanlarını yaxşılaşdırmaq üçün Konstitusiya Məhkəməsi 2010-cu ildə bəyan etdi ki, hüquqi məsələlər üzrə şikayət ilə konstitusiya şikayəti eyni vaxtda verildikdə, konstitusiya şikayəti yalnız Ali Məhkəmənin aprllyasiya şikayəti üzrə qərarından sonra qəbul edilə bilər. Bununla belə, bu halda konstitusiya şikayətinin verilməsi üçün qanunla müəyyən edilmiş müddətə riayət edilmiş hesab olunur. | ***SVK/ Stavebna Spolocnost Tatry Poprad, S.R.O.*** **(7261/06)**<br>***Yekun qərar*** **03/08/2011**<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2012)221** |

| | |
|---|---|
| Konstitusiya şikayətinin verilməsi üçün qanunla müəyyən edilmiş müddətin hesablanması praktikasında dəyişiklik edilmişdir. | ***SVK / Franek (14090/10)***<br>***Yekun qərar 11/05/2014***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2015)12** |
| **Hüquqi müəyyənlik prinsipinin təmin edilməsi:** İcra edilməli olan qanuni qüvvəyə minmiş yekun qərarın icrasına əsassız müdaxilələrə qarşı 6-cı maddənin 1-ci bəndi ilə tələb olunan müdafiəni gücləndirmək məqsədilə Konstitusiya Məhkəməsinin təcrübəsində dəyişiklik edildi. AİHM-in qərarından əvvəl Konstitusiya Məhkəməsi 2015-ci ildə vahid rəy qəbul etmişdi, həmin rəyə əsasən, məhkəmələr tərəfindən adi icraatlarda faktların qiymətləndirilməsində və ya gəlinən hüquqi nəticələrdə fikir ayrılığı olduqda, yekun məhkəmə qərarlarının ləğvi üçün fövqəladə hüquqi müdafiə vasitəsindən istifadə edilə bilərdi. AİHM qərarından sonra Konstitusiya Məhkəməsi Konvensiyaya uyğun presedent hüququnu tətbiq etməyə başlamışdır. | ***SVK/ Draft - Ova A.S. (72493/10)***<br>**Fəaliyyət planı**<br>**Yekun qərar 09/09/2015** |
| **Konstitusiya Məhkəməsi kollegiyalarının qərəzsizliyi:** Konstitusiya Məhkəməsinin hakimin prosesdən kənarlaşdırılması (6-cı maddənin 1-ci bəndinə və 13-cü maddəyə zidd olaraq) barədə qərarlarında qərəzsizliyi aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi öz presedent hüququnu təkmilləşdirdi və aşağı məhkəmələrdə eyni iş üzrə icraatda ekspert (2007) və ya hakim (2017) qismində iştirak etmiş hakimlərin prosesdən kənarlaşdırılması ilə bağlı operativ sistem yaratdı. | ***SVN / Svarc və Kavnik (75617/01)***<br>***Yekun qərar 08/05/2007***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2018)213** |
| **Cinayət prosesində sübutların təqdim edilməsi ilə bağlı qaydaların təkmilləşdirilməsi:** Konstitusiya Məhkəməsi 2011-ci ildə qanunsuz yolla əldə edilmiş sübutlar əsasında şübhəli şəxsin cinayət məsuliyyətinə cəlb edilməsini qadağan edən qərar qəbul etdi. O, xüsusilə qeyd etdi ki, kimisə cinayət törətməkdə ittiham etmək qanunsuz istintaq və ya axtarış tədbirləri nəticəsində əldə edilmiş sübutlara əsaslana bilməz. Bundan əlavə, 2014-2017-ci illər arasında İxtisaslaşdırılmış Ali Məhkəmə tərəfindən bir sıra tövsiyələr verilmişdir ki, onlar da cinayət prosesində müdafiə hüquqlarının səmərəliliyi, habelə vəkillə təmsil olunmaq hüququndan və digər prosessual hüquqlardan imtinanın əsaslılığının qiymətləndirilməsi sahəsində AİHM-in presedent hüququna aiddir. Vəkilin iştirakı məcburi olan, amma vəkilin iştirakı olmadan aparılan icraatlarda çıxarılmış məhkəmə qərarları ləğv edilməlidir. | ***UKR / Borotyuk (33579/04)***<br>***Yekun qərar 16/03/2011***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2017)295** |

## 2.4. Şəxsi həyatın müdafiəsi

| | |
|---|---|
| **Səs-küyüm yaratdığı narahatlığa qarşı konstitusion hüquqi müdafiə vasitəsi:** 8-ci maddədə tələb olunan şəxsi və ailə həyatına hörmət hüququnun müdafiəsi üçün Konstitusiya Məhkəməsinin 2011-ci ildə çıxardığı qərarda bütün məhkəmə orqanlarına verilən göstəriş yer alır. Həmin qərarda deyilir ki, AİHM-in presedent hüququna əsasən, ətraf mühitin pisləşməsinə səbəb olan səs-küyün yaratdığı narahatlığa dözümlü yanaşan administrasiyanın passivliyi və ya hərəkətsizliyi qanunsuzdur və Konstitusiyaya ziddir. Bundan əlavə, fundamental hüququn pozulmasına səbəb olan hərəkətsizliyə qarşı konstitusiya şikayəti verilə bilər. | ***İSP / Martinez Martinez (21532/08)***<br>***Yekun qərar 18/01/2012***<br>**Fəaliyyət hesabatı**<br>**Yekun qətnamə CM/ResDH(2017)223** |

| | |
|---|---|
| **Şəxsi həyatın müdafiəsi:** Ölkədaxili məhkəmələrin şahzadənin şəxsi həyatı ilə bağlı sensasiya xarakterli fotoşəkillərin dərcini qadağan etməkdən imtina etməsi səbəbindən baş vermiş 8-ci maddənin pozuntusunu aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik etdi və dövlətlərin şəxsin öz fotosundan istifadəyə nəzarət etməsi hüququnu müdafiə etmək öhdəliyi ilə bağlı AİHM-in əsaslandırmasını nəzərə aldı. | ***ALM / Von Hannover (59320/00)***<br><br>***Yekun qərar 24/09/2004***<br><br>**Yekun qətnamə CM/ResDH(2007)124** |
| **Valideynlərin qəyyumluğu məsələsində bərabər rəftar:** Nikahdankənar doğulmuş uşağın qəyyumluğuna münasibətdə atalara qarşı ayrı-seçkilik xarakterli rəftarı aradan qaldırmaq üçün (14-cü maddə ilə əlaqəli şəkildə götürülmüş 8-ci maddə) Federal Konstitusiya Məhkəməsi 2010-cu ildə qərara aldı ki, bir-biri ilə nikahda olmayan valideynlərin qəyyumluğu haqqında müddəa Konstitusiyaya ziddir, belə ki, uşağın anası razılıq vermədikdə, ata valideyn olaraq övladının qəyyumluğundan prinsipcə kənarlaşdırılırdı. Buna görə də, o, problem həll olunana qədər məsələsinin müvəqqəti tənzimlənməsi barədə göstəriş verdi, belə ki, əgər uşağın mənafeyinə zidd olmazsa, valideynin vəsatəti əsasında Ailə işləri üzrə məhkəmə birgə və ya qismən birgə qəyyumluq barədə qərar çıxarmalıdır. Sonradan "Bir-biri ilə nikahda olmayan valideynlərin qəyyumluğu sahəsində islahat haqqında" 2013-cü il tarixli Qanunda nəzərdə tutuldu ki, əgər uşağın üstün mənafelərinə zidd olmazsa, valideynin vəsatəti əsasında birgə qəyyumluq barədə qərar qəbul edilir. Belə hesab edilir ki, ana bu cür birgə qəyyumluğa zidd ola biləcək hər hansı səbəb göstərməyibsə və məhkəməyə hər hansı belə bir səbəb bəlli deyilsə, bu cür qəyyumluq uşağın üstün mənafelərinə uyğundur. | ***ALM/ Zaunegger* (22028/04)**<br><br>**Yekun qərar 03/03/2010**<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2014)163** |
| **Bioloji valideynlər haqqında məlumat əldə etmək imkanı:** Ərizəçinin öz mənşəyi haqqında məlumat əldə edə bilməməsi nəticəsində 8-ci maddənin AİHM tərəfindən müəyyən edilmiş pozuntusunu aradan qaldırmaq üçün 2013-cü ildə Konstitusiya Məhkəməsi elan etdi ki, övladlığa götürülmüş şəxslərin bioloji anaları haqqında məlumat əldə etməsini qadağan edən müddəa, əgər məhkəmə ananın buna razılığının olduğunu yoxlamaq imkanına malik deyilsə, konstitusiyaya ziddir. Yeni qanun layihəsinin qəbuluna qədər hazırda ölkədaxili hakimlər bioloji ananın razılığının olmasını yoxlamaq üçün onunla əlaqə saxlaya bilərlər. 2017-ci ildə Kassasiya Məhkəməsi bu mövqeyi təsdiqlədi. | ***İTA / Godelli (33783/09)***<br><br>***Yekun qərar 18/03/2013***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2015)176** |
| **Xaricdə vətəndaş nikahı bağlamış eyni cinsli cütlüklərə münasibətdə ayrı-seçkiliyin qadağan edilməsi:** Şəxsə münasibətdə onun cinsi oriyentasiyasından asılı olmayaraq ölkədə yaşamaq hüququ ilə bağlı bərabər rəftarın təmin edilməsi üçün (8-ci maddə ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddə) Konstitusiya Məhkəməsi eyni cinsli əcnəbi tərəf-müqabil üçün ailə əlaqəsinə görə yaşayış icazəsinin alınması hüququnu tanıdı. 2012-ci ildə Kassasiya Məhkəməsi onların heteroseksual cütlüklərə verilən eyni hüquqlardan istifadə etməsinin qanunla mümkünlüyünü təsdiqlədi. Bundan əlavə, 2016-cı ildə bu münasibətlərin qanunla tanınmasına və əcnəbi tərəf-müqabilin ailə məqsədləri üçün yaşayış icazəsi almasına imkan verən "Daimi və sabit eynicinsli münasibətdə olan şəxslərin vətəndaş nikahı haqqında" Qanun qəbul edildi. | ***İTA / Taddeucci və McCall (51362/09)***<br><br>***Yekun qərar 30/09/2016***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2018)125** |
| **Nikahdankənar doğulmuş övladların atalığın müəyyən edilməsi üçün iddia qaldırmaq imkanına malik olması:** Müvafiq iddia müddətlərinin başa çatması səbəbindən atalıq əlaqəsinin müəyyən edilməsinin (8-ci maddə) mümkünsüzlüyünü aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2016-cı ildə özünün əvvəlki presedent hüququnda dəyişiklik etdi və qərara aldı ki, uşağın doğulduğu gündən bir illik iddia müddətinin təyin edilməsi yalnız ananın və ya uşağın qanuni nümayəndəsinin qaldırdığı iddialara şamil olunur və uşağın özünün qaldırdığı iddialara isə, onun doğum tarixindən asılı olmayaraq, şamil olunmur. Bundan əvvəl Konstitusiya Məhkəməsi 2008-ci ildə müəyyən etmişdi ki, atalığın müəyyən edilməsi üçün 288/2007 saylı Qanunda və yeni Mülki Məcəllədə nəzərdə tutulan qaydada qaldırılan iddialara iddia müddətinin tətbiq edilməməsi yalnız yeni qanun qüvvəyə mindikdən sonra doğulmuş uşaqlara şamil olunur. | ***RUM/ Calin və başqaları (25057/11)***<br><br>***Yekun qərar 19/10/2016***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2018)418** |

| | |
|---|---|
| **Uşaqla görüşmək hüququ və qəyyumluq hüquqları ilə bağlı təminatlar:** 8-ci maddəyə uyğun olaraq, uşaqla görüşməyə imkan verən qəyyumluq hüquqları ilə əlaqədar inzibati qərarın icrası üçün adekvat və səmərəli addımların atılmamasını aradan qaldırmaqdan ötrü Konstitusiya Məhkəməsi 2003-cü ildə "Nikah və ailə münasibətləri haqqında" Qanunun qəyyumluq və görüş hüquqlarını tənzimləyən bir sıra müddəalarının konstitusiyaya zidd olduğunu müəyyən etmişdir. Sonradan daxili məhkəmələrə qəyyumluq və görüş hüququ ilə bağlı qərar vermək səlahiyyəti verildi. Valideyn-övlad münasibətləri ilə bağlı işlərə prioritet qaydada baxılır. Bundan əlavə, 2004-cü ildən sonra sosial təminat mərkəzləri tərəfindən görüş hüququ barədə inzibati qərarların qəbul edilməsinə icazə verilmir. | ***SVN / Eberhard və M. (8673/05)***<br><br>***Yekun qərar 01/03/2010***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)396** |
| **Cinsiyyətin dəyişdirilməsi hüququnun həyata keçirilməsi:** Nəsil artırma qabiliyyətinə malik olmama kimi ilkin hüquqi şərtin mövcud olmaması səbəbindən daxili məhkəmələrin ərizəçinin cinsiyyətinin dəyişdirilməsinə dair iddialarını qəbul etməkdən imtina etməsini aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2017-ci ildə cinsiyyətin dəyişdirilməsinə icazə verilməsi üçün ilkin tələb kimi nəsil artırma qabiliyyətinə malik olmamanın şərt olmasını nəzərdə tutan Mülki Məcəllənin müddəasını ləğv etdi. Nəticədə artıq belə bir şərt tələb olunmur. | ***TÜR / Y.Y. (14793/08)***<br><br>***Yekun qərar 10/06/2015***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2018)395** |
| **Mobil telefonla aparılan söhbətlərin dinlənilməsinə qarşı müdafiə:** Mobil telefonla aparılan söhbətlərin məhkəmənin razılığı olmadan dinlənildiyi situasiyanı korrektə etmək üçün Konstitusiya Məhkəməsi 2012-ci ildə qərara aldı ki, hətta sözügedən tədbir 72 saatdan da az vaxt keçdikdən sonra başa çatmış olsa belə, dinləmə faktından sonra Ali Məhkəmənin sədrindən və ya xüsusi səlahiyyətli hakimdən belə bir icazənin alınması tələb olunur. Bu təfsir bütün dövlət orqanları üçün məcburi qüvvəyə malikdir və beləliklə, pozuntuya qarşı hüquqi müdafiə vasitəsi rolunu oynayır. | ***LAT / Meimanis (70597/11)***<br><br>***Yekun qərar 21/10/2015***<br><br>**Fəaliyyət hesabatı**<br><br>**Yekun qətnamə CM/ResDH(2017)211** |

## 2.5. İfadə azadlığı

| | |
|---|---|
| **Regional və yerli radio yayımının, habelə kabel və peyk yayımının liberallaşdırılması:** Məlumat və ya ideyaları yaymaq azadlığını qorumaq üçün Konstitusiya Məhkəməsi 1995-ci ildə mübahisələndirilən müddəaları konstitusiyaya zidd elan etdi. Daha sonra 1997-ci ildə regional və yerli radio yayımı, habelə kabel və peyk yayımı liberallaşdırıldı. Bununla belə, milli yerüstü televiziya və radio yayımı Avstriya Yayım Şirkətinə həvalə edilmiş monopoliya olaraq qalır. "Regional radio yayımı haqqında" Qanuna və "Kabel və peyk yayımı haqqında" Qanuna uyğun olaraq qəbul edilən qərarlar üzərində məhkəmə nəzarəti on yeddi üzvdən ibarət Komissiya tərəfindən həyata keçirilir, onlardan doqquzu hakimlərdir. Prosedur 1991-ci il tarixli İnzibati Prosessual Qanunda müəyyən edilən qaydada aparılır. | ***AVS / Informationaverein Lentia (13914/88)***<br><br>***Yekun qərar 24/11/1993***<br><br>**Yekun qətnamə DH(98)142** |
| **Böhtan işi üzrə icraatda faktın böhtan olmadığının sübut edilməsinin ittiham olunan şəxsin məsuliyyətini aradan qaldırması:** Parlament üzvünün hökumətə böhtan atdığına görə məhkum edilməsi ilə bağlı ifadə azadlığına (10-cu maddə) müdaxiləni aradan qaldırmaq üçün 1993-cü ildə Konstitusiya Məhkəməsi bu qənaətə gəldi ki, fundamental hüquqları qoruyan konstitusiya normalarının şərhində AİHM-in presedent hüququ meyar təşkil edir və İspaniya hüquq sistemində birbaşa tətbiq edilə bilər. Nəticədə Ali Məhkəmə böhtan işi üzrə icraatda ərizəçinin qeyd etdiyi faktın böhtan olmadığının qəbul edilməli olduğunu etiraf etdi. | ***İSP / Castells (11798/85)***<br><br>***Yekun qərar 23/04/1992***<br><br>**Yekun qətnamə DH(95)93** |

**Böhtan işi üzrə icraatda faktın böhtan olmadığının sübut edilməsinin ittiham olunan şəxsin məsuliyyətini aradan qaldırması:** Siyasətçinin dövlət qulluqçusuna böhtan atdığına görə məhkum edilməsi ilə bağlı ifadə azadlığına (10-cu maddə) qarşı müdaxiləni aradan qaldırmaq üçün 2011-ci ildə Konstitusiya Şurası "Mətbuat azadlığı haqqında" 1881-ci il tarixli Qanunun müddəasının Konstitusiyaya zidd olduğunu elan etdi. Həmin müddəa böhtana görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin on ildən artıq əvvəlki dövrdə böhtan sayılan faktların əslində doğru olduğunu sübut etməklə məsuliyyətdən azad olmalarını qeyri-mümkün edirdi.

*FRA/ Mamere (12697/03)*
*Yekun qərar 07/02/2007*
Yekun qətnamə CM/ResDH(2011)104

**Deputat toxunulmazlığına qoyulan məhdudiyyətlər:** Deputat imtiyazından istifadə edərək 10-cu maddəni pozan parlament üzvləri barəsində böhtana görə cinayət işi qaldırmağın mümkünsüzlüyü məsələsini həll etmək üçün Konstitusiya Məhkəməsi 2014-cü ildə öz presedent hüququnda dəyişiklik etdi. Konstitusiyanın müddəaları parlament funksiyasının həyata keçirilməsi ilə əlaqəsi olmayan ifadələrə şamil edilməməlidir. Əgər məhkəmə icraatında qanunvericilik palatası onun üzvlərindən birinin davranışına Konstitusiya ilə müəyyən edilmiş deputat toxunulmazlığının şamil olunduğunu bildirirsə, hakim dövlət səlahiyyətlərindən Konstitusiyaya zidd şəkildə istifadə məsələsini Konstitusiya Məhkəməsi qarşısında qaldırır.

*İTA / Patrono, Cascini və Stefanelli (10180/04)*
*Yekun qərar 20/07/2006*
Fəaliyyət hesabatı
Yekun qətnamə CM/ResDH(2016)119

**Söz azadlığı ilə bağlı konstitusiya şikayətlərinin qəbul edilməsi:** Böhtanla əlaqədar olaraq şəxsiyyətin nüfuzunun müdafiəsi ilə bağlı mülki icraat çərçivəsində jurnalistlərin və qəzet şirkətlərinin 10-cu maddəyə zidd olaraq məsuliyyətə cəlb edilməsi problemini həll etmək üçün Konstitusiya Məhkəməsi 2015-ci ildə böhtanla bağlı mülki hüquqi şikayətlərə mahiyyəti üzrə baxılmasına aid presedent hüququnda dəyişiklik etdi. O həmçinin AİHM tərəfindən işlənib hazırlanmış mütənasiblik testini də nəzərə alır.

*SVK / Soltesz (11867/09)*
*Yekun qərar 22/01/2014*
Fəaliyyət hesabatı
Yekun qətnamə CM/ResDH(2019)167

## 2.6. Toplaşmaq və birləşmək azadlığı

**Kortəbii (spontan) toplantılar:** Sərbəst toplaşmaq azadlığının 11-ci maddəyə zidd olaraq qeyri-mütənasib şəkildə məhdudlaşdırılmasını aradan qaldırmaq üçün 2008-ci ildə Konstitusiya Məhkəməsi işin konkret hallarını nəzərə alaraq dinc toplantının sadəcə qabaqcadan bildiriş verilməməsi səbəbindən qadağan edilməsini konstitusiyaya zidd hesab etdi, belə ki, siyasi hadisəyə cavab olaraq dərhal nümayişin təşkil edilməsi məqsədəuyğun ola bilər. Beləliklə, o, "Toplaşmaq hüququ haqqında" 1989-cu il tarixli Qanunun belə bir qadağanı nəzərdə tutan mübahisəli müddəasını ləğv etdi. Bu qərardan sonra kortəbii nümayişlər keçirməzdən əvvəl bildiriş verilməsinə ehtiyac yoxdur.

*MAC / Bukta (25691/04)*
*Yekun qərar 17/10/2007*
Yekun qətnamə ResDH(2010)54

## 2.7. Ayrı-seçkilik

**Müavinət almaq hüququ ilə bağlı vətəndaşlığa görə ayrı-seçkiliyə məruz qalmamaq:** Bütün şəxslərin ayrı-seçkilik olmadan (14-cü maddə) fövqəladə müavinət almaq hüququnu təmin etmək üçün Konstitusiya Məhkəməsi 1998-ci ildə yalnız vətəndaşların fövqəladə müavinət almaq hüququnu nəzərdə tutan müddəaları ləğv etdi və onun bu qərarı dərhal qüvvəyə mindi. Beləliklə, o, qərarlarının sonrakı tarixlərdə qüvvəyə minməsi praktikasından kənarlaşmış oldu. Sonradan parlament "İşsizlikdən sığorta haqqında" Qanuna dəyişikliklərin 2000-ci ildə deyil, 1998-ci ildə daxil edilməsini nəzərdə tutan yeni qanun qəbul etdi.

*AVS / Gaygusuz (17371/90)*
*Yekun qərar 16/09/1996*
Yekun qətnamə ResDH(1998)372

## 2.8. Mülkiyyətin müdafiəsi

| | |
|---|---|
| **Evdən çıxarılmaya qarşı müdafiə:** Evdən çıxarılma işi üzrə icraatda prosessual təminatların yerinə yetirilməməsi məsələsini həll etmək üçün (8-ci maddə) 2014-cü ildə Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik etdi. O qeyd etdi ki, səlahiyyətli mülki məhkəmələr evdən çıxarılmanın mütənasibliyini və zəruriliyini yoxlamaq öhdəliyi daşıyırlar. Konstitusiya Məhkəməsinin yuxarıda qeyd olunan qərarından sonra Ali Məhkəmə də təsdiq etmişdir ki, daxili məhkəmələr evdən çıxarılma işlərində mütənasiblik testini tətbiq etmək öhdəliyi daşıyırlar. | *XOR / Bjedov (42150/09)*<br>*Yekun qərar 29/08/2012*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2018)237 |
| **Daxili məhkəmələr tərəfindən təyin edilmiş məbləğlərin indeksləşdirilməsi:** Müavinətlərin hesablanmasında yaşayış minimumunu əmsal kimi nəzərdə tutan qanunvericilik normalarının aydın və proqnozlaşdırıla bilən olmaması səbəbindən onlar 2002-ci ildə Konstitusiya Məhkəməsi tərəfindən konstitusiyaya zidd elan edildi. 2004-cü ildə parlament Çernobıl hadisəsindən zərər çəkənlərin sosial sığortasını tənzimləyən qanunvericiliyə dəyişiklik etdi. Yeni qanun növbəti maliyyə ili üçün federal büdcə vəsaitlərinin hesablanmasında istifadə olunan inflyasiya səviyyəsi əsasında müavinətlərin yeni indeksləşdirilmə sistemini nəzərdə tutur. | *RUS / Burdov (59498/00)*<br>*Yekun qərar 04/09/2002*<br>Yekun qətnamə ResDH(2004)85 |
| **Mülkiyyət hüququnun itirilməsinə görə kompensasiya:** 1 saylı Protokolun 1-ci maddəsinə zidd olaraq ictimai məqsədlər üçün torpaqların ekspropriasiyası ilə əlaqədar qeyri-mütənasib müdaxiləni aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi 2003-cü ildə bəyan etdi ki, "Ekspropriasiya haqqında" Qanunun müddəaları konstitusiyaya ziddir, belə ki, həmin müddəalara əsasən ictimai məqsədlər üçün istifadə edilməkdən ötrü zəbt edilmiş əmlakın geri qaytarılması barədə iddialar zəbtetmə faktından 20 il keçdikdən sonra qüvvəsini itirir. Beləliklə, bu müddəalar etibarsız sayılır. | *TÜR/ I.R.S və başqaları (26338/95)*<br>*Yekun qərar 15/12/2004*<br>Yekun qətnamə CM/ResDH(2007)98 |

## 2.9. Seçki hüquqları

| | |
|---|---|
| **Məhkumların seçki hüquqlarının müdafiəsi:** Məhkum edilmiş məhbusların 1 saylı Protokolun 3-cü maddəsinə zidd olaraq seçki hüquqlarına qoyulan qadağanı aradan qaldırmaq məqsədilə Konstitusiya Məhkəməsi 2015-ci il tarixli qərarı ilə qəsdən cinayət törətmiş şəxslərin səsvermə hüquqlarını bütün cəzaçəkmə müddəti ərzində, hətta məhkum cəzanın çəkilməsinin təxirə salınması və ya vaxtından əvvəl azad edilmə səbəbindən həbsdə saxlanmadıqda belə, avtomatik olaraq itirməsini ləğv etdi. İndi yalnız qəsdən cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasını çəkən şəxslər cəzaçəkmə müəssisəsində cəzasının icrası zamanı səsvermədə iştirakdan kənarlaşdırılır. | *TÜR / Soyler (29411/07)*<br>*Yekun qərar 20/01/2014*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2019)147 |
| **Məhbusların səsvermə hüququ:** Bütün məhkumların həbs yerlərində səsvermə hüququna Konstitusiya əsasında tətbiq edilən, 1 saylı Protokolun 3-cü maddəsinə zidd olduğu müəyyən edilmiş avtomatik qadağaya son qoyulmasına yönələn 2016-cı il tarixli qərarında Konstitusiya Məhkəməsi müvafiq konstitusiya müddəasının imperativ xarakter daşıdığını və ona düzəliş edilməsi üçün xüsusi mürəkkəb prosedurun tələb olunduğunu təsdiqlədi. Bununla belə, o qeyd etdi ki, federal qanunverici orqan cinayət cəzası sistemini optimallaşdıra bilər ki, azadlıqdan məhrumetmənin müəyyən formaları məhkumların səsvermə hüququndan məhrum edilməsinə səbəb olmasın. 2017-ci ildə yuxarıdakı qərara uyğun olaraq Cinayət Məcəlləsinin yeni cəza növünü – yüngül və ya orta ağır cinayətlərə və yaxud ilk dəfə törədilən ağır cinayətlərə görə təyin edilə bilən ictimai işləri nəzərdə tutan müddəası qüvvəyə mindi. İctimai işlər məhkumların "islah mərkəzlərinə" yerləşdirilməsini nəzərdə tutur ki, burada məhbuslar səsvermə hüquqlarını qoruyurlar. | *RUS / Anchugov və Gladkov (11157/04)*<br>*Yekun qərar 09/12/2013*<br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2019)240 |

## 2.10. *Ne bis in idem* (eyni əmələ görə iki dəfə cəzalandırılmamaq)

| | |
|---|---|
| **Eyni faktlar üzrə həm cinayət icraatı, həm də inzibati icraat çərçivəsində məsuliyyətə cəlb edilməkdən müdafiə:** Əvvəlki məhkəmə qərarının predmeti olmuş faktlar üzrə yenidən məhkum olunmanı aradan qaldırmaq üçün (7 saylı Protokolun 4-cü maddəsi) Konstitusiya Məhkəməsi 1996-cı ildə “Yol hərəkəti haqqında” Qanununun pozuntuya səbəb olmuş müddəalarını ləğv etdi. Nəticədə rayon administrasiyaları cinayət məhkəmələrinin yurisdiksiyasına aid olan işlərə baxmaq səlahiyyətlərini itirmişlər. | ***AVS / Gradinger (15963/90)***<br>*Yekun qərar 23/10/1995*<br><br>Yekun qətnamə DH(97)501 |
| **Cinayət işləri üzrə icraat və xırda hüquqpozmalara dair işlər üzrə icraat çərçivəsində eyni hüquqpozmaya görə iki dəfə məhkum edilməkdən müdafiə:** Konstitusiya Məhkəməsi 2012-ci ildə *ne bis in idem* (eyni əmələ görə iki dəfə cəzalandırılmamaq) prinsipinin tətbiqini təmin etmək məqsədilə öz presedent hüququnu AİHM-in presedent hüququna uyğunlaşdırmaq üçün dəyişdi. Həmçinin bəzi orqanlar (dolayı vergitutma orqanı, vergi administrasiyası və prokurorluq) tərəfindən cinayət işləri və xırda hüquqpozmalara dair işlər üzrə prosessual hərəkətlərlə bağlı təlimatlar qəbul edilmişdir. | ***BVH / Muslija (32042/11)***<br>*Yekun qərar 14/04/2014*<br><br>Fəaliyyət hesabatı<br>Yekun qətnamə CM/ResDH(2017)30 |

# ƏLAVƏ 1 – İŞLƏRİN SİYAHISI

ALB / Alimucaj (20134/05)............................................17
ALB / Caka işlər qrupu (44023/02+) ................................ 5
ALB / Laska və Lika (12315/04)....................................... 5
ALB / Manushaqe Puto və başqaları (604/07) ................13
ALB / Marini (3738/02+) ................................................ 5
ALB / Mishgjoni (18381/05) ........................................... 4
ALB / Xheraj (37959/02)................................................. 5
AND / Millan I Tornes (35052/97) .................................. 5
ERM / Avetisyan (13479/11) .......................................... 5
ERM / Ermənistan Helsinki Komitəsi (59109/08) ............13
ERM / Mamikonyan (25083/05)....................................17
ERM / Minasyan və Semerjyan (27651/05+)..................13
ERM / Safaryan (576/06) ..............................................14
ERM / Saghatelyan (7984/06)........................................ 6
ERM / Sholokhov (40358/05) ........................................17
ERM /Melikyan (9737/06).............................................. 6
AVS / Ahmed (25964/94) ..............................................16
AVS / Bonisch (8658/79) ...............................................17
AVS / Gaygusuz (17371/90) ..........................................23
AVS / Gradinger (15963/90)..........................................25
AVS / Informationaverein Lentia (13914/88).................22
AVS / Rambauske (45369/07) ........................................ 6
BEL / Dil işləri qrupu (1474/62) .....................................15
BOL / Ivanova (52435/99).............................................12
BOL / Stefanov (32438/96)............................................12
BVH / Avdic və başqaları (28357/11+)........................... 6
BVH / Muslija (32042/11) .............................................25
XOR / Ajdaric (20883/09)..............................................18
XOR / Bjedov (42150/09) ..............................................24
XOR / Buvac (47685/13) ...............................................18
XOR / Camovski (38280/10)..........................................18
XOR / Horvat işlər qrupu (51585/99+)............................ 6
XOR / Jakupovic (12419/04)........................................... 6
XOR / Juricic (58222/09) ................................................ 7
XOR / Krnjak (11228/10)...............................................16
XOR / Kutic işlər qrupu (48778/99)...............................17
XOR / Omerovic (№2) (22980/09) .................................18
XOR / Pocuca (38550/02)..............................................18
KİP / Aziz (69949/01) ...................................................14
KİP / M.A. (41872/10) .................................................... 3
ÇEX / Adamicek (35836/05) ..........................................18
ÇEX / Diallo (20493/07).................................................16
ÇEX / Kilian (48309/99).................................................19
ÇEX / Vodarenska Akciova Spolecnost, A.S. (73577/01)..19
ÇEX / Zakova (2000/09) ................................................. 7
İSP / Barbera, Messegue və Jabardo (10588/83) ............ 7
İSP / Castells (11798/85)...............................................22
İSP / Igual Coll (37496/04) ............................................ 8
İSP / Martinez Martinez (21532/08)..............................20
İSP / Moreno Carmona (26178/04) ................................ 7
İSP/ Tendam (25720/05).............................................. 16
FRA/ Mamere (12697/03)............................................. 23
GÜR / Gharibashvili (11830/03+) ................................... 8
GÜR / Ramishvili (48099/08) ........................................ 14
GER/ Von Hannover (59320/00).................................... 21
ALM / Zaunegger (22028/04) ....................................... 21
YUN / Hornsby işlər qrupu (18357/91) ........................... 8
YUN / Karakasis (38194/97) ........................................... 8
YUN / Pafitis və başqaları (20323/92+) .......................... 8
YUN / Thlimmenos (34369/97) ..................................... 12
YUN / Lykourezos (33554/03) ....................................... 14
MAC / Alajos Kiss işlər qrupu (38832/06)...................... 14
MAC / Bukta (25691/04) .............................................. 23
İRL / "Open Door" və "Dublin Well Woman" (14234/88 və 14235/88) .......................................................... 12
İTA / Bracci (36822/02)................................................ 19
İTA / Craxi (№2) (34896/97) ........................................... 8
İTA / Godelli (33783/09) ............................................... 21
İTA / Patrono, Cascini və Stefanelli (10180/04) ............. 23
İTA / Rojas Morales (39676/98).................................... 19
İTA / Taddeucci və McCall (51362/09)........................... 21
LIE / Wille (28396/95).................................................. 12
LİX / Vasiliauskas (35343/05) ....................................... 19
LİT / Paksas (34932/04)................................................15
LAT / Meimanis (70597/11)........................................... 22
MOL / Ialamov (65324/09) ........................................... 16
MOL / Savca (17963/08) ................................................. 3
NOR / Bladet Tromso AS və Pal Stensas (21980/93)....... 13
POL / Baczkowski və başqaları (1543/06)...................... 13
RUM / Grosaru (78039/01)........................................... 14
RUM / Hulea (33411/05) .............................................. 11
RUM / Calin və başqaları (25057/11)............................ 21
RUS / Anchugov və Gladkov (11157/04) ........................ 24
RUS / Burdov (59498/00).............................................. 24
SER / Momcilovic (23103/07).......................................... 9
SER / Paunovic və Milivojevic (41683/06) ..................... 15
SER / Vincic (44698/06) .................................................. 9
SER / Vrencev (2361/05)................................................. 4
İSVR / R.M.D. (19800/92) ............................................... 4
SVK / Franek (14090/10) .............................................. 20
SVK / Harabin (58688/11)............................................... 9
SVK / Jori (34753/97)...................................................... 9
SVK / Lopez Guio (10280/12) .......................................... 9
SVK / Soltesz (11867/09) .............................................. 23
SVK/ Draft - Ova A.S. (72493/10).................................. 20
SVK/ Stavebna Spolocnost Tatry Poprad, S.R.O. (7261/06) ................................................................ 19
SVN / Eberhard və M. (8673/05).................................. 22
SVN / Kuric (26828/06)................................................. 11
SVN / Lukenda (23032/02)............................................. 9

*SVN / Svarc və Kavnik (75617/01)* ....................................20
*SVN/ Gaspari (21055/03)* ................................................ 9
*TÜR / Ciraklar (9601/92)* ...............................................10
*TÜR / Incal (22678/93)*...................................................10
*TÜR / Kizilyaprak (9844/02)* ...........................................10
*TÜR / Ormanci və başqaları (43647/98)*.........................10
*TÜR / Özbek, (25327/04)*................................................11
*TÜR / Sadak və başqaları (22990/96)* .............................10
*TÜR* / Sakik *və başqaları* (№1) (23878/94)....................... 4
*TÜR / Sertkaya (77113/01)* ............................................10
*TÜR / Soyler (29411/07)*.................................................24
*TÜR / Tanisma (32219/05)*............................................. 11
*TÜR / Birləşmiş Kommunist Partiyası və digər 7 iş (19392/92)* ............................................................. 11
*TÜR / Y.Y. (14793/08)*................................................... 22
*TÜR /Kalem (70145/01)*................................................ 10
*TÜR / I.R.S və başqaları (26338/95)*............................... 24
*UKR / Borotyuk (33579/04)* .......................................... 20
*UKR* / Ignatov (40583/15)................................................4
*UKR / Oleksandr Volkov işlər qrupu (21722/11+)*........... 11
*UKR* / Soldatenko (2440/07)...........................................3